# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 23 (3633) Cümə axşamı / 2-8 iyul 2026-cı il Qiyməti 40 qəpik


MÜSAHİB

## Türk dünyasını birləşdirən həftə



**Elnarə Akimova,**
Milli Məclisin deputatı

***Bu günlərdə Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsi keçirilir. Qeyd edək ki, tədbir Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Türk Akademiyası və digər tərəfdaş qurumların iştirakı ilə təşkil olunub. Tədbirdə 20 ölkədən 80-ə yaxın tanınmış türkoloq alim və beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər. Türk Dünyası Həftəsi türk dövlətləri arasında siyasi, iqtisadi, elmi və humanitar əməkdaşlığın yeni mərhələsini nümayiş etdirən mühüm beynəlxalq platforma kimi diqqət çəkir. 29 iyun-3 iyul tarixlərini əhatə edən tədbirlər çərçivəsində ortaq dil, təhsil, elm və mədəniyyət məsələləri, eləcə də Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın dərinləşdirilməsi istiqamətində perspektivlər müzakirə olunur.***

*Türk Dünyası Həftəsində irəli sürülən ideyalar gələcəkdə türk dövlətləri arasında daha güclü həmrəyliyin və strateji tərəfdaşlığın formalaşmasına mühüm töhfə verə bilər*

Səh. 2

# "Siz şəxsi liderliyinizi göstərdiniz ki..."

***Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Azərbaycana səfər edib. İyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə təkbətək görüşü olub. Daha sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib. Tərəflər mətbuata birgə bəyanatla da çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, bu gün biz Avropa İttifaqı ilə Azərbaycan arasında çox fəal, dinamik dialoqun şahidiyik. Onun sözlərinə görə, Azərbaycan Avropa Komissiyası ilə əməkdaşlığımıza böyük önəm verir. Dövlətimizin başçısı qeyd edib ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. "Azərbaycan Avropa İttifaqı üçün Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır", - Prezident İlham Əliyev Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenlə mətbuata bəyanatında deyib.***



Dövlətimizin başçısı vurğulayıb ki, ticarətin 70 faizdən artığı məhz Azərbaycanın payına düşür. Prezident qeyd edib ki, bu gün bizim qaz ixracımızın yarısı Avropa İttifaqına üzv dövlətlərin payına düşür. "Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qaz idxal edir və bu coğrafiyanın genişləndirilməsi üçün imkanlar var", - deyə dövlətimizin başçısı xatırladıb.

Azərbaycan Prezidenti xatırladıb ki, enerji təhlükəsizliyi bu gün hər bir ölkə üçün milli maraq məsələsidir. Dövlətimizin başçısı, həmçinin qeyd edib: "Azərbaycan bir çox siyasi, diplomatik səylər göstərmişdir və maliyyə yatırımları etmişdir ki, müvafiq infrastruktur yaradılsın və bizim neft-qaz resurslarımız Avropaya yönlənsin. Cənub Qaz Dəhlizi bizim birgə fəaliyyətimizin nəticəsidir". Onun sözlərinə görə, bu gün hər bir istiqamətdə Azərbaycanın ərazisindən keçən yük həcmi artır. "Biz həm Azərbaycanda, həm də qonşuluqda infrastruktur layihələrinə böyük sərmayə yatırmışıq, bu işlər davam edir", - deyə dövlətimizin başçısı vurğulayıb.

"İlk növbədə, əlbəttə ki, bu regionda baş verən məsələ - cərəyan edən proses sülh prosesidir. Bu gün tarixi sülh sazişini parafladığınıza görə Sizi təbrik etmək istərdim", - bu fikirləri isə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Prezident İlham Əliyevlə mətbuata bəyanatında deyib.



*Biz həm Azərbaycanda, həm də qonşuluqda infrastruktur layihələrinə böyük sərmayə yatırmışıq, bu işlər davam edir*

*Avropa İttifaqı artıq Azərbaycanın ən böyük sərmayəçisi və ticarət tərəfdaşıdır*

"Siz şəxsi liderliyinizi göstərdiniz ki, bu regionda sülh bərqərar edilsin və bu da sabitlik, etimad və birgə firavanlıq üçün yol açır", - deyə o qeyd edib.

"Biz sülhü kağız üzərində deyil, real həyatda tətbiq etməyə hazırıq və bu gün də, hər gün bu istiqamətdə çalışmalıyıq", - Avropa Komissiyasının Prezidenti deyib. "Biz bağlantı vasitəsilə sülhü təşviq etmək istərdik", - deyə Avropa Komissiyasının Prezidenti vurğulayıb. "Sizin ölkəniz (Azərbaycan - red.) nadir ölkələrdəndir ki, o, regional sabitliyi və inkişafı irəli apara bilər", - o bildirib. O qeyd edib ki, Azərbaycan özünün strateji əhəmiyyətini və regional nüfuzunu artırır. Bu gün Azərbaycanla Avropa İttifaqı bağlantı sahəsində də yüksəksəviyyəli dialoq həyata keçirir.

Avropa Komissiyasının Prezidenti enerji sahəsində əməkdaşlıq məsələsinə də toxunub. "Enerji sahəsi əlbəttə ki, bizim tərəfdaşlığın ən vacib sütunlarından biridir", - Ursula Fon der Lyayen Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatında deyib. O bildirib: "Son dövrdə Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaş olduğunu sübut edib".

Onun sözlərinə görə, Azərbaycan bərpaolunan enerji layihələri icra edir. "Sizin Xəzər dənizində böyük potensialınız var və Azərbaycan təmiz enerji üçün də regionda qovşaq rolunu oynaya bilər", - deyə o əlavə edib.

Avropa İttifaqı artıq Azərbaycanın ən böyük sərmayəçisi və ticarət tərəfdaşıdır. Biz bunu daha da irəli aparmalıyıq. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatında söyləyib.

"Biz müfəssəl əməkdaşlıq sazişi üzərində işlərimizi davam etdiririk ki, Azərbaycanla Avropa İttifaqı arasında ticarət genişləndirilsin", - deyə o əlavə edib.

AKTUAL



**Azər Badamov,**
Milli Məclisin deputatı

■ Qərb, Rusiya müxtəlif səbəblərdən Ermənistan faktorundan istifadə etməyə çalışır

■ Hazırda yekun sülh müqaviləsinin imzalanması qarşısında əsas maneə Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları ehtiva edən müddəaların qalmasıdır

■ Azərbaycanın məqsədi Ermənistan dövləti və erməni xalqı ilə uzunmüddətli və davamlı sülhün təmin edilməsidir

Səh. 3

GÜNÜN FOTOSU...




**Niderlandlı futbolçuları yıxan an**

GÜNÜN SİTATI

*"Bu gün Azərbaycan-ABŞ münasibətləri yüksək dinamizmlə inkişaf edir"*



**Samir Şərifov,**
Azərbaycan Respublikasının Baş nazirinin müavini

KARİKATURA




**Makronun Afrikadan qaçışı davam edir**

## Yay mövsümü ilə qayıdan köhnə problem

**Cahid Həsənov,**
Şəhərsalma və ətraf mühit məsələləri üzrə ekspert

Problemin həlli üçün nə restoranların fəaliyyətini məhdudlaşdırmağa, nə də sakinlərin narazılığını görməzdən gəlməyə ehtiyac var.

Səh. 7

STATİSTİKA



■ **2026-cı ilin yanvar-may aylarında Azərbaycanda kolbasa məmulatları istehsalı 1467,5 ton və ya 12,2 faiz artaraq 13 min 459,9 ton təşkil edib.**

İyunun 1-i vəziyyətinə hazır məhsul ehtiyatı ötən ilin eyni dövrü ilə müqayisədə 19,9 ton və ya 43,4 faiz azalaraq 26 ton olub. Qeyd edək ki, 2025-ci ilin eyni dövründə kolbasa məmulatları istehsalı 11 min 992,4 ton, hazır məhsul ehtiyatı isə 45,9 ton təşkil edib.



Səh. 6

## Yaşlı həkimlərə yaşıl işıq

XƏBƏR LENTİ

# Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib.**

İclasda Birinci vitse-prezident Mehriban Əliyeva çıxış edib:

- Hörmətli həmkarlar.

Bu gün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasını keçiririk. Cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilmişdir və verilən tapşırıqlara əsasən, rəqəmsal inkişaf üzrə Fəaliyyət Planı təsdiqlənmişdir. Qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret Yol xəritəsi müəyyən olunmuşdur. Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır.

Süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir. Eyni zamanda, süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır və artıq mərkəzi yer tutur. Sirr deyil ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı gözlənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində həm yeni imkanlar, eyni zamanda, yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq.

Fəaliyyətimiz bütün dövlət qurumlarının birgə fəal və səmərəli işini tələb edir. Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır.

***

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ”Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 20262028-ci illər üçün Fəaliyyət Planı”nın icrası ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə Birinci vitse-prezidentə məlumat verdi. Qeyd etdi ki, fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 təşəbbüsü əhatə edir. Rəqəmsallaşma istiqamətində görülən işlərə toxunan nazir 40 dövlət qurumu ilə Yol xəritələrinin hazırlandığını, onlardan 13-nün artıq təsdiqləndiyini və ya təsdiq mərhələsində olduğunu dedi.

Rəşad Nəbiyev Milli Məlumat Hövzəsinin yaradılması barədə məlumat verdi, dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası və yeni data mərkəzinin tikintisi üzrə işlərin davam etdirildiyini vurğuladı. ”Mygov” platformasının xidmət dairəsinin genişləndirildiyini, son üç ayda istifadəçilərin sayının 2,7 milyondan 3,5 milyona çatdığını deyən nazir artıq bir neçə tətbiqin platformaya inteqrasiya olunduğunu, daha yeddi dövlət tətbiqinin xidmətlərinin isə ilin sonunadək vətəndaşların istifadəsinə veriləcəyini bildirdi.

Rəqəmsal inkişaf və nəqliyyat naziri fəaliyyət planının əsas prioritetlərindən birinin süni intellekt olduğunu vurğulayaraq, ”mygov” və digər dövlət qurumlarında süni intellekt həllərinin tətbiqinin genişləndirildiyini, virtual vətəndaş köməkçisinin istifadəyə verildiyini dedi. Rəşad Nəbiyev innovasiya ekosisteminin inkişafı məsələlərinə toxundu, texnoloji suverenliyi gücləndirən sahələrdə fəaliyyət göstərən şirkətləri bir araya gətirmək məqsədilə Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılmasına başlanıldığını vurğuladı və kibertəhlükəsizlik sahəsində görülən işlərdən danışdı. Qeyd etdi ki, Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi, Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Mərkəzi və Rəqəmsal Təhqiqat Mərkəzinin yaradılması, həmçinin dövlət və özəl sektor arasında operativ məlumat mübadiləsini təmin edəcək vahid milli kibertəhlükəsizlik platformasının qurulması istiqamətində işlər davam etdirilir.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "Zaman" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -1500

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Türk dünyasını birləşdirən həftə

***Bu günlərdə Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsi keçirilir. Qeyd edək ki, tədbir Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Türk Akademiyası və digər tərəfdaş qurumların iştirakı ilə təşkil olunub. Tədbirdə 20 ölkədən 80-ə yaxın tanınmış türkoloq alim və beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər. Türk Dünyası Həftəsi türk dövlətləri arasında siyasi, iqtisadi, elmi və humanitar əməkdaşlığın yeni mərhələsini nümayiş etdirən mühüm beynəlxalq platforma kimi diqqət çəkir.***

## Müsahib

29 iyun-3 iyul tarixlərini əhatə edən tədbirlər çərçivəsində ortaq dil, təhsil, elm və mədəniyyət məsələləri, eləcə də Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın dərinləşdirilməsi istiqamətində perspektivlər müzakirə olunur. Müsahibimiz Milli Məclisin deputatı, tədbirdə yaxından iştirak edən Elnarə Akimovadır:

***- Bakıda keçirilən Türk Dünyası Həftəsini türk dövlətləri arasında inteqrasiyanın gücləndirilməsi baxımından necə qiymətləndirirsiniz?***

- Türk Dünyası Həftəsi təkcə mədəni tədbirlər silsiləsi deyil, eyni zamanda türk dövlətləri arasında siyasi, iqtisadi, elmi və humanitar əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirən mühüm platformadır. Bu gün türk dünyasının coğrafiyası yüz milyonlarla insanı, zəngin təbii ehtiyatları, mühüm nəqliyyat dəhlizlərini və böyük iqtisadi potensialı özündə birləşdirir. Belə bir şəraitdə ortaq tarixə, dilə və mədəniyyətə malik dövlətlərin vahid platformada bir araya gəlməsi inteqrasiyanın dərinləşməsi baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycanın bu tədbirə ev sahibliyi etməsi ölkəmizin türk dünyasında oynadığı aparıcı rolun növbəti dəfə təsdiqidir. Son illər Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən layihələr Azərbaycanın türk dövlətləri arasında əməkdaşlığın əsas təşəbbüskarlarından birinə çevrildiyini açıq şəkildə göstərir. Xüsusilə nəqliyyat, enerji, rəqəmsal iqtisadiyyat və humanitar sahələrdə həyata keçirilən birgə layihələr Türk Dünyası Həftəsinin praktiki nəticələrini daha da artırır. Dünyada geosiyasi rəqabətin gücləndiyi bir dövrdə türk dövlətlərinin ortaq maraqlar ətrafında sıx əməkdaşlıq etməsi regional sabitlik və təhlükəsizlik baxımından da mühüm amilə çevrilir. Bu baxımdan, Bakıdan verilən mesaj ondan ibarətdir ki, türk dövlətləri artıq yalnız tarixi və mədəni bağlarla deyil, ortaq siyasi iradə və qarşılıqlı maraqlarla da birləşirlər. Bu proses heç bir dövlətə qarşı yönəlməyib, əksinə, regionda əməkdaşlığın, iqtisadi inkişafın və qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir.



**Elnarə Akimova,**
Milli Məclisin deputatı

Məhz buna görə də Türk Dünyası Həftəsi gələcəyə hesablanmış strateji əməkdaşlığın rəmzi kimi qiymətləndirilməlidir.

***- Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması türk xalqlarının ortaq tarixi yaddaşının və mədəni kimliyinin qorunmasına hansı töhfələri verə bilər?***

- Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması bütövlükdə türk xalqlarının ortaq elmi irsinə və mədəni yaddaşına verilən yüksək dəyərin ifadəsidir. 1926-cı ildə Bakıda keçirilən bu qurultay türkoloji elmin inkişafında dönüş nöqtəsi hesab olunur və müxtəlif türk xalqlarının alimlərini ilk dəfə geniş miqyasda bir araya gətirmişdi. Bir əsr sonra həmin tarixi hadisənin yenidən diqqət mərkəzinə gətirilməsi ortaq kimliyin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Qloballaşmanın sürətləndiyi dövrdə milli dillərin, mədəniyyətlərin və tarixi yaddaşın qorunması hər bir xalq üçün strateji məsələyə çevrilib. Türkoloji irsin öyrənilməsi yalnız keçmişi araşdırmaq deyil, gələcək nəsillərin milli kimliyinin möhkəmləndirilməsinə xidmət edən mühüm vəzifədir. Qurultayın yubileyi türk xalqları arasında elmi əməkdaşlığın genişlənməsinə, ortaq tədqiqat layihələrinin hazırlanmasına və yeni nəsil alimlərin yetişdirilməsinə də mühüm stimul verə bilər. Bu tədbir, eyni zamanda, türk dillərinin inkişafı, ortaq terminologiyanın formalaşdırılması və mədəni əlaqələrin dərinləşdirilməsi üçün yeni imkanlar açır. Azərbaycanın bu tarixi ənənəni yaşatması ölkəmizin türkoloji elmin əsas mərkəzlərindən biri olduğunu bir daha nümayiş etdirir. Tarixini unutmayan xalqlar gələcəyini daha inamla qururlar və Birinci Türkoloji Qurultayın 100 illiyi də məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu yubiley türk dünyasının ortaq yaddaşını gələcək nəsillərə ötürən mühüm körpü rolunu oynayır.

***- Son illər Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın genişlənməsi fonunda Türk Dünyası Həftəsinin siyasi və geosiyasi əhəmiyyəti nədən ibarətdir?***

- Türk Dövlətləri Təşkilatının son illərdə institusional baxımdan güclənməsi fonunda Türk Dünyası Həftəsinin əhəmiyyəti təkcə mədəniyyət sahəsi ilə məhdudlaşmır, həm də ciddi siyasi və geosiyasi məna daşıyır. Müasir beynəlxalq münasibətlər sistemində regional əməkdaşlıq platformaları dövlətlərin dayanıqlı inkişafı və təhlükəsizliyi üçün mühüm alətə çevrilib. Türk dövlətləri enerji, logistika, nəqliyyat və ticarət marşrutlarının kəsişməsində yerləşdiyi üçün onların koordinasiyalı fəaliyyəti beynəlxalq iqtisadi proseslərə də təsir göstərir. Xəzər dənizini birləşdirən Orta Dəhlizin inkişafı, rəqəmsal layihələrin genişləndirilməsi və yeni iqtisadi əlaqələrin qurulması türk dünyasının geoiqtisadi çəkisini artırır. Bu baxımdan, Türk Dünyası Həftəsi ortaq strateji baxışın formalaşdırıldığı mühüm dialoq platforması kimi çıxış edir. Tədbirdə səsləndirilən ideyalar göstərir ki, türk dövlətləri əməkdaşlığı yalnız mədəni yaxınlıq üzərində deyil, qarşılıqlı maraqlara əsaslanan uzunmüddətli strateji tərəfdaşlıq kimi inkişaf etdirmək niyyətindədirlər. Bu proses regionda sabitliyin möhkəmlənməsinə, iqtisadi inteqrasiyanın sürətlənməsinə və yeni əməkdaşlıq imkanlarının yaranmasına xidmət edir. Azərbaycanın bu prosesdə fəal iştirakı ölkəmizin regional diplomatiyasını daha da gücləndirir. Nəticə etibarilə Türk Dünyası Həftəsi türk dövlətlərinin ortaq gələcək vizyonunu nümayiş etdirən mühüm siyasi platformaya çevrilməkdədir. Bu isə bütövlükdə Avrasiya məkanında yeni əməkdaşlıq modelinin formalaşmasına töhfə verir.

> “
> *Türk Dünyası Həftəsində irəli sürülən ideyalar gələcəkdə türk dövlətləri arasında daha güclü həmrəyliyin və strateji tərəfdaşlığın formalaşmasına mühüm töhfə verə bilər*

✍ ***Tahirə Qafarlı***

# Kremlin separatçı oyunu

***Rusiyada son günlər artıq tarixin qaranlıq səhifələrində itib-batan Qarabağ mövzusunun yenidən informasiya gündəminə çıxarılması diqqət çəkir. Bəzi media orqanlarında "Artsax" ifadəsinin yenidən işlədilməsi, keçmiş qondarma separatçı rejimə aid simvolların nümayiş etdirilməsi və Qarabağ ermənləri ilə bağlı müxtəlif iddiaların tirajlanması bu addımların arxasında hansı siyasi məqsədlərin dayandığı ilə bağlı suallar doğurur. Ekspertlər hesab edirlər ki, regionda yeni geosiyasi reallıqların formalaşdığı bir vaxtda bu cür informasiya kampaniyaları təsadüfi xarakter daşımır və müəyyən siyasi mesajlar ehtiva edir.***

## Aktual



"Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev Hafta.az-a bildirib ki, son vaxtlar Rusiyanın bəzi media orqanlarında və siyasi dairələrində keçmiş Qarabağ separatizminin yenidən informasiya müstəvisinə daşınması təsadüfi proses deyil. Onun sözlərinə görə, "Artsax" ifadəsinin yenidən dövriyyəyə buraxılması, Qarabağ ermənilərinin guya zorla bölgədən çıxarıldığına dair iddiaların tirajlanması, eləcə də keçmiş qanunsuz silahlı separatçı birləşmələrin simvollarının Rusiya mediasında nümayiş etdirilməsi müəyyən siyasi dairələrin bu mövzunu yenidən aktuallaşdırmaq niyyətindən xəbər verir.

"Azərbaycan 2023-cü ildə həyata keçirdiyi antiterror tədbirləri nəticəsində öz suverenliyini tam bərpa etdi və Qarabağdakı separatizm məsələsini birdəfəlik bağladı. Bu mövzu artıq nə hüquqi, nə də siyasi baxımdan müzakirə predmeti ola bilməz. Lakin Rusiyanın müəyyən dairələri görünür ki, bu səhifəni tam bağlamaq istəmir və Qarabağ mövzusunu gələcək geosiyasi proseslərdə təsir aləti kimi saxlamağa çalışırlar", - deyə A.Quliyev vurğulayıb.

Siyasi şərhçinin fikrincə, bu cür addımlar Azərbaycan-Rusiya münasibətlərinə mənfi təsir göstərməkdən başqa heç bir nəticə verməyəcək:

"Moskva anlamalıdır ki, Qarabağ separatizmini informasiya gündəminə qaytarmaq cəhdləri regionda etimad mühitini sarsıdır. Maraqlı məqam ondan ibarətdir ki, Rusiyanın bəzi media platformalarında səsləndirilən tezislər Avropa və ABŞ-də Azərbaycanın ərazi bütövlüyünü şübhə altına almağa çalışan müəyyən siyasi dairələrin ritorikası ilə ciddi şəkildə üst-üstə düşür. Bu isə Rusiyanın öz geosiyasi maraqlarına da uyğun gəlmir. Hesab edirəm ki, Azərbaycan Qarabağ məsələsini tarixə çevirdiyi kimi, Rusiya da bu mövzudan siyasi manipulyasiya vasitəsi kimi istifadə etmək cəhdlərinə son qoymalıdır. Əgər Moskva Bakı ilə münasibətlərin qarşılıqlı etimada əsaslanan məcrada inkişafında maraqlıdırsa, separatizmə hər hansı formada siyasi, informasiya və ya ideoloji dəstək verən bütün təşəbbüsləri dayandırmalıdır. Bu, həm regionda davamlı sabitliyin qorunması, həm də Azərbaycan-Rusiya münasibətlərinin sağlam inkişafı üçün vacib şərtdir".

A.Quliyev əlavə edir ki, Qarabağdan köçmüş ermənilərin sonrakı taleyi ilə bağlı müxtəlif iddialar da səslənir. Onun sözlərinə görə, həmin şəxslərin bir hissəsinin Rusiyanın nəzarətində müxtəlif istiqamətlərdə, o cümlədən hərbi fəaliyyətlərə cəlb olunduğu barədə yayılan məlumatlar ciddi araşdırılmalıdır: "Əgər bu iddialar təsdiqini taparsa, bu, vaxtilə Azərbaycana qarşı istifadə olunan separatçı resurslardan bu gün başqa geosiyasi məqsədlər naminə yararlanıldığını göstərə bilər".

■ **Politoloq Rəşad Bayramov bildirir ki, dövlət mediasında separatizmi simvolizə edən şəxslərin və atributların nümayiş etdirilməsi beynəlxalq hüququn prinsipləri və ikitərəfli münasibətlərin ruhu ilə uzlaşmır:** "Rusiya tərəfinin belə addımları təkcə media etikası baxımından deyil, həm də dövlətlərarası münasibətlər və beynəlxalq hüququn prinsipləri kontekstində ciddi suallar yaradır. Azərbaycan 2023-cü ildə öz suverenliyini bütün ərazisində tam bərpa etdikdən sonra Qarabağ məsələsi hüquqi və siyasi baxımdan yeni mərhələyə keçib. Bu reallıq həm beynəlxalq təşkilatlar, həm də Rusiyanın özü tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınması çərçivəsində qəbul olunub. Belə olan halda separatizmi simvolizə edən şəxslərin və atributların dövlət televiziyasında nümayiş etdirilməsi yeni regional reallıqlarla uzlaşmayan mövqenin ifadəsi kimi qiymətləndirilməlidir.

Bu və bunabənzər hadisələr, eləcə də Rusiyanın ayrı-ayrı ictimai-siyasi fiqurlarının açıqlamaları belə təəssürat yaradır ki, söhbət təsadüfi addımdan deyil, müəyyən siyasi yanaşmadan gedir. Belə məzmunun dövlətə məxsus media platformasında yayımlanması Qarabağ mövzusunu informasiya müstəvisində yenidən gündəmə gətirmək cəhdi kimi görünür. Xüsusilə Cənubi Qafqazda yeni geosiyasi balansın formalaşdığı bir dövrdə bu cür materialları sadəcə informasiya səhvi kimi qiymətləndirmək mümkün deyil".

R.Bayramov qeyd edir ki, Rusiya da yaxşı bilir ki, media vasitəsilə formalaşdırılan narrativlər dövlətlərarası münasibətlərə birbaşa təsir göstərir: "Separatizmə rəğbət yaradan və ya onu legitimləşdirən görüntülərin yayımlanması Azərbaycan cəmiyyətində haqlı narazılıq yaradır və iki ölkə arasında etimad mühitinə mənfi təsir göstərir. Rusiya anlamalıdır ki, bu kimi hallar son dövrlər Bakı ilə Moskva arasında onsuz da həssas olan münasibətlərin daha da gərginləşməsinə səbəb ola bilər. Əgər Moskva Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və regionda sabitliyin tərəfdarı olduğunu bəyan edirsə, bu prinsip dövlət mediasının fəaliyyətində də aydın şəkildə əksini tapmalıdır".

Ekspertin sözlərinə görə, Azərbaycan ictimaiyyətinin Rusiyadan əsas gözləntisi məsələyə rəsmi münasibətin bildirilməsi və oxşar halların təkrarlanmaması üçün konkret addımların atılmasıdır:

"Bizim Rusiyadan istəyimiz odur ki, bu hadisəyə aydın izahat verilsin, dövlət mediasında redaksiya məsuliyyəti gücləndirilsin və beynəlxalq hüquqa zidd məzmunun yayılmasının qarşısının alınması üçün əməli tədbirlər görülsün. Bu, həm Azərbaycan-Rusiya münasibətlərində onsuz da xeyli zəifləyən etimadın qorunmasına, həm də Moskvanın separatizmi təşviq etdiyi barədə iddiaların qarşısının alınmasına xidmət edər. Hesab edirəm, bu cür informasiya təxribatları təkcə media hadisəsi deyil, həm də siyasi və diplomatik nəticələr doğura biləcək addımlardır. Rusiya regionda formalaşmış yeni reallıqlara və beynəlxalq hüququn prinsiplərinə hörmət etməli, bu məsələdə məsuliyyətli davranmalıdır. Əks yanaşma Azərbaycan-Rusiya münasibətlərində yeni gərginliklər yarada bilər".

■ **Məsələni Hafta.az-a şərh edən siyasi ekspert Azər Hüseynov bildirir ki, bu cür hallar təsadüfi sayıla bilməz və müəyyən siyasi mesajlar ehtiva edir.**

Ekspert qeyd edir ki, Rusiya telekanallarının birində qondarma Qarabağ emblemlərinin nümayiş etdirilməsi onu göstərir ki, Rusiya və ümumiyyətlə bəzi dövlətlər erməni kartından xarici siyasətdə zaman-zaman alət kimi istifadə etməyə çalışırlar:

"Bununla belə, təkcə bu hadisənin Azərbaycan-Rusiya münasibətlərinə ciddi və həlledici təsir göstərəcəyini düşünmürəm. Bu kimi addımlar, şübhəsiz ki, iki ölkə arasında etimada mənfi təsir göstərir. Əgər belə hallar davamlı xarakter alarsa və sayı artarsa, bu, istər-istəməz Azərbaycan-Rusiya münasibətlərinin soyumasına səbəb ola bilər. Buna görə də Azərbaycanın bu cür məsələlərə diqqətli və prinsipial yanaşması, milli maraqlarını qətiyyətlə müdafiə etməsi təqdirəlayiq və zəruridir".

Ekspertin fikrincə, Azərbaycan öz suverenliyi və ərazi bütövlüyü ilə bağlı məsələlərdə prinsipial mövqeyini bundan sonra da qorumalı, bu kimi təxribat xarakterli addımlara qarşı vaxtında və adekvat münasibət bildirməlidir.

✍ ***Tahirə Qafarlı***

# Təhlükəsizliyin keşiyində

***İyulun 2-si Azərbaycanda Polis Günüdür. Bu tarix təkcə daxili işlər orqanları əməkdaşlarının peşə bayramı deyil, həm də hüququn aliliyinin, ictimai sabitliyin və milli təhlükəsizliyin təmin edilməsində polis institutunun rolunu bir daha qiymətləndirmək üçün mühüm gündür. Dövlətçiliyin möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin təmin olunması polis xidmətinin əsas missiyasını təşkil edir. Məhz buna görə də müasir dövrdə polis fəaliyyəti yalnız hüquq-mühafizə funksiyası ilə məhdudlaşmır, ölkənin təhlükəsizlik arxitekturasının ayrılmaz elementi kimi çıxış edir.***



*“Azərbaycan polisi dövlətə və xalqa sədaqətlə xidmət edən güclü hüquq-mühafizə institutudur*

## Polis Günü

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev Polis gününün əhəmiyyətini ifadə edən məqamlara diqqət çəkib. Deputat bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra daxili işlər orqanlarının formalaşdırılması və müasir standartlara uyğun inkişaf etdirilməsi dövlət quruculuğu prosesinin prioritet istiqamətlərindən biri olub. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi, cinayətkarlığa qarşı ardıcıl mübarizə və hüquq-mühafizə sisteminin institusional əsaslarının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Sonrakı illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində polis orqanlarının maddi-texniki bazası gücləndirilib, idarəetmə sistemi müasirləşdirilib, rəqəmsal texnologiyalar geniş tətbiq olunub və xidmət keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlib.

Deputat qeyd edib ki, təhlükəsizlik anlayışı əvvəlki dövrlərlə müqayisədə daha geniş məzmun daşıyır. Əgər bir zamanlar polis fəaliyyətinin əsas istiqaməti ənənəvi cinayətkarlıqla mübarizə hesab olunurdusa, hazırda kibercinayətkarlıq, transmilli mütəşəkkil cinayətkarlıq, terrorizm, radikalizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya və informasiya təhlükəsizliyi kimi yeni risklər hüquq-mühafizə orqanlarının qarşısında daha mürəkkəb vəzifələr qoyur. Deputat bu baxımdan hesab edir ki, polisin fəaliyyəti operativ çeviklik, yüksək peşəkarlıq və müasir texnologiyalardan səmərəli istifadə tələb edir.



“Son illər daxili işlər orqanlarında aparılan institusional islahatlar polis xidmətinin keyfiyyətinə mühüm töhfə verib. Elektron xidmətlərin genişləndirilməsi, videomüşahidə sistemlərinin tətbiqi, rəqəmsal idarəetmə mexanizmlərinin inkişafı, süni intellekt və analitik informasiya bazalarından istifadənin artırılması cinayətlərin qarşısının alınmasına, onların operativ açılmasına və vətəndaş məmnunluğunun yüksəlməsinə xidmət edir. Polis-vətəndaş münasibətlərində şəffaflığın artırılması, müraciətlərə operativ baxılması və ictimai nəzarət mexanizmlərinin inkişaf etdirilməsi də hüquq-mühafizə sisteminə olan ictimai etimadı gücləndirən əsas amillərdəndir.



Azərbaycanın yerləşdiyi mürəkkəb geosiyasi məkan da daxili təhlükəsizlik məsələlərinin aktuallığını artırır. Cənubi Qafqazda davam edən siyasi proseslər, transmilli təhdidlər və qlobal təhlükəsizlik çağırışları fonunda ölkədə daxili sabitliyin qorunması strateji əhəmiyyət daşıyır. Dövlətin həyata keçirdiyi iri iqtisadi və nəqliyyat layihələrinin, enerji marşrutlarının və beynəlxalq tədbirlərin təhlükəsizliyinin təmin olunması hüquq-mühafizə orqanlarının peşəkarlığını və hazırlıq səviyyəsini daha da ön plana çıxarır”.

A.Nağıyev hesab edir ki, 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıqlar da polis orqanlarının fəaliyyət istiqamətlərini genişləndirib. İşğaldan azad olunmuş ərazilərdə hüquq qaydasının təmin edilməsi, dövlət qurumlarının normal fəaliyyətinin təşkili, qanunsuz silahlı fəaliyyətlərin qarşısının alınması, ictimai təhlükəsizliyin qorunması və əhalinin təhlükəsiz yaşayışının təmin olunması daxili işlər orqanlarının üzərinə mühüm vəzifələr qoyub.

Böyük Qayıdış proqramının uğurla həyata keçirilməsi üçün təhlükəsiz mühitin yaradılması da məhz peşəkar hüquq-mühafizə sisteminin fəaliyyəti ilə sıx bağlıdır. “Azərbaycan polisi yalnız hüquq pozuntularına reaksiya verən qurum deyil. Müasir polis modeli profilaktik tədbirlərin həyata keçirilməsini, hüquqi maarifləndirməni, gənclərlə işi, ictimai əməkdaşlığın genişləndirilməsini və cinayətlərin baş verməməsi qarşısının alınmasını əsas fəaliyyət istiqamətlərindən biri hesab edir.

Polis əməkdaşlarının peşəkarlığı yalnız gündəlik xidmətdə deyil, həm də dövlətçiliyin qorunması uğrunda aparılan mübarizədə özünü göstərib. Birinci Qarabağ müharibəsindən başlayaraq 44 günlük Vətən müharibəsi və sonrakı antiterror tədbirləri zamanı daxili işlər orqanlarının əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları xüsusi fədakarlıq nümayiş etdiriblər. Onlar həm ön cəbhədə döyüş tapşırıqlarını yerinə yetirib, həm də arxa cəbhədə ictimai sabitliyin qorunmasını təmin ediblər. Bu xidmətlər nəticəsində yüzlərlə polis əməkdaşı şəhidlik zirvəsinə ucalıb, minlərlə əməkdaş müxtəlif dərəcəli xəsarətlər alıb. Onların göstərdikləri qəhrəmanlıq dövlət tərəfindən yüksək qiymətləndirilərək orden və medallarla təltif olunub”. Deputat eyni zamanda bildirir ki, Azərbaycan polisi təkcə ictimai asayişin keşiyində dayanan qurum deyil, həm də dövlətçiliyimizin və ərazi bütövlüyümüzün qorunması uğrunda böyük qəhrəmanlıq salnaməsi yazmış təsisatdır.

Hər bir polis əməkdaşının fəaliyyəti dövlətimizin təhlükəsizlik strategiyasının mühüm tərkib hissəsidir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, “Polisə olan hörmət dövlətə olan hörmətdir”. Dövlət başçısının vurğuladığı kimi, polis əməkdaşları qanunun keşiyində dayanır, cinayətkarlığa qarşı mübarizə aparır və vətəndaşların təhlükəsizliyini təmin edirlər”.

Deputatın sözlərinə görə, regionda mürəkkəb geosiyasi proseslərin davam etdiyi hazırkı şəraitdə hüquq-mühafizə orqanlarının üzərinə daha böyük məsuliyyət düşür.

Deputat əlavə olaraq vurğulayır ki, Polis Günü münasibətilə daxili işlər orqanlarının fəaliyyətinə nəzər salarkən aydın görünür ki, təhlükəsizlik yalnız hüquq-mühafizə sisteminin deyil, bütövlükdə dövlətin davamlı inkişafının əsas şərtlərindən biridir. Güclü iqtisadiyyatın, sabit investisiya mühitinin, sosial rifahın və vətəndaşların təhlükəsiz həyatının təmin olunması etibarlı polis institutunun fəaliyyəti ilə birbaşa bağlıdır.

“Müasir çağırışlara uyğun inkişaf edən Azərbaycan polisi dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, milli maraqların qorunması və ölkənin təhlükəsiz gələcəyinin təmin olunması istiqamətində öz missiyasını uğurla davam etdirir”, - deyə deputat bildirib. A.Nağıyev sonda Polis Günü münasibətilə daxili işlər orqanlarının bütün şəxsi heyətini təbrik edərək onlara məsuliyyətli və şərəfli xidmətlərində uğurlar arzulayıb. O vurğulayıb ki, qanunun aliliyinin, ictimai asayişin və vətəndaş təhlükəsizliyinin keşiyində ayıq-sayıq dayanan bütün hüquq-mühafizə orqanlarının əməkdaşlarının fəaliyyəti dövlət və cəmiyyət tərəfindən yüksək qiymətləndirilir.

***✍ Tahirə Qafarlı***

***P.S. “Həftə içi” qəzeti olaraq biz də Azərbaycan Polisini, daxili işlər orqanlarının hər bir əməkdaşını peşə bayramları münasibətilə təbrik edirik.***



# Sülhə əngəl yaradan “qətnamə”lər

***2026-cı ildə Ermənistanda keçirilən parlament seçkilərindən sonra Azərbaycan əleyhinə bəzi Avropa siyasi dairələrində və beynəlxalq qurumlarda qəbul edilən qətnamələr regionda yeni geosiyasi mübarizənin tərkib hissəsi kimi qiymətləndirilir. Ermənistanın Qərbə inteqrasiyasını sürətləndirmək cəhdləri, Avropa İttifaqının İrəvanla siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığı genişləndirməsi fonunda Cənubi Qafqaz yenidən böyük güclərin rəqabət meydanına çevrilməkdədir.***

*“Qərb, Rusiya müxtəlif səbəblərdən Ermənistan faktorundan istifadə etməyə çalışır*

## Aktual

Bu şəraitdə Azərbaycana qarşı qərəzli yanaşmalar irəli sürülür. Həm Qərb, həm də Rusiya müxtəlif səbəblərdən Ermənistan faktorundan istifadə etməyə çalışır. Bir tərəfdən, Brüssel Ermənistanı öz geosiyasi təsir zonasına yaxınlaşdırmağa çalışır, digər tərəfdən Moskva regionda itirdiyi mövqeləri bərpa etmək üçün İrəvan üzərində təsir imkanlarını qorumağa.

Nəticədə Azərbaycan müxtəlif istiqamətlərdən informasiya təzyiqləri ilə üzləşir. Belə bir vəziyyətdə belə bir sual ortaya çıxır: Azərbaycana qarşı aparılan informasiya kampaniyaları hansı strateji məqsədlərə xidmət edir və regionun gələcəyi ilə bağlı hansı ssenarilər nəzərdən keçirilir? Bölgədə sülh prosesinə hansı maneələr yaradıla bilər?

■ **Milli Məclisin deputatı Azər Badamov bildirir ki, Ermənistanda keçirilən seçkilərdə Nikol Paşinyanın yenidən hakimiyyətdə qalması Azərbaycanla yekun sülh müqaviləsinin imzalanması ehtimalını artırır.** Bununla belə, yeni siyasi mərhələdə ilk növbədə parlament və hökumətin tam formalaşdırılması vacibdir. Bundan sonra Ermənistan Konstitusiyasında dəyişikliklərin edilməsi ilə bağlı referendumun keçirilməsi məsələsi gündəmə gətirilə bilər. Yeni parlament fəaliyyətə başlamadan referendumun vaxtı və nəticələri barədə qəti fikir söyləmək hələ tezdir. Lakin mövcud siyasi vəziyyət Paşinyan hökumətinə sülh gündəliyini irəli aparmaq üçün əvvəlki dövrlə müqayisədə daha əlverişli imkanlar yaradır: “Hazırda yekun sülh müqaviləsinin imzalanması qarşısında əsas maneə Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları ehtiva edən müddəaların qalmasıdır. Bu məsələ həll olunmadan iki ölkə arasında yekun sülh müqaviləsinin imzalanması çətin görünür. Konstitusiya dəyişikliyi referendum yolu ilə həyata keçirilməlidir. Əgər Ermənistan hakimiyyəti bu istiqamətdə siyasi iradə nümayiş etdirərsə və cəmiyyətdə dəstək qazana bilərsə, bu məsələnin həlli real görünür. Azərbaycan isə öz növbəsində sülh gündəliyinə sadiq qalaraq humanitar və iqtisadi əməkdaşlıq istiqamətində addımlar atır. Ermənistan istiqamətinə tranzit yüklərin Azərbaycan ərazisindən keçməsinə şərait yaradılması, eləcə də enerji məhsullarının ixracı iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına xidmət edir. İqtisadi inteqrasiyanın genişlənməsi isə sülh prosesinin möhkəmlənməsinə əlavə töhfə verə bilər”.

Millət vəkili bildirir ki, Azərbaycanın məqsədi Ermənistan dövləti və erməni xalqı ilə uzunmüddətli və davamlı sülhün təmin edilməsidir: “Avropa Şurası Parlament Assambleyasında və bəzi Avropa institutlarında qəbul edilən qətnamələr isə regionda yaranmış yeni geosiyasi reallıqları tam nəzərə almır. Bu sənədlərin hazırlanmasında müəyyən siyasi dairələrin təsirinin olunduğunu düşünürəm. Azərbaycan nümayəndə heyəti AŞPA-nın fəaliyyətində iştirak etmədiyi halda belə, ölkəmizə qarşı tənqidi qətnamələrin qəbul edilməsi qərəzin və ikili standartların nümayişidir. Eyni zamanda, bu qətnamələrin hüquqi baxımdan məcburedici qüvvəsi yoxdur və Azərbaycanın mövqeyinə birbaşa təsir göstərmir.

Zəngəzur dəhlizi məsələsi isə artıq regional layihədən daha çox beynəlxalq geosiyasi rəqabətin predmetinə çevrilib. ABŞ, Avropa İttifaqı, Rusiya, Türkiyə və İran bu marşrutun gələcək taleyinə müxtəlif prizmadan yanaşırlar. Buna görə də dəhlizin reallaşması təkcə Azərbaycan və Ermənistan arasında razılaşmalardan deyil, həm də böyük güclərin maraqlarının uzlaşdırılmasından asılıdır”.

Onun sözlərinə görə, yekun sülh müqaviləsinin imzalanması Cənubi Qafqazda münasibətlər sistemini keyfiyyətcə yeni mərhələyə yüksəldə bilər. Bu, otuz ildən artıq davam edən qarşıdurmanın hüquqi və siyasi baxımdan yekunlaşmasına, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasına və iqtisadi-ticari əməkdaşlığın genişlənməsinə şərait yaradacaq:

“Eyni zamanda, yeni mərhələdə əsas çağırış hərbi qarşıdurma deyil, sülhün institusional əsaslarının möhkəmləndirilməsi, qarşılıqlı etimadın artırılması, nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılması və iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi olacaq. Bu proseslər uğurla həyata keçirilərsə, regionda uzunmüddətli sabitlik və təhlükəsizlik üçün daha əlverişli şərait formalaşa bilər”.

***✍ Tahirə Qafarlı***

# Azərbaycan mədəniyyətinin vizit kartı

## Layihə

***“Qonaq ruzisi ilə gələr”. Bu ifadə əsrlərdir ki, Azərbaycan ailələrində deyilən, nəsildən-nəslə ötürülən bir hikmətdir. Bu sözlər təkcə atalar sözü deyil, xalqımızın həyat tərzini, dünyagörüşünü və mənəvi dəyərlərini əks etdirən yaşam fəlsəfəsidir. Azərbaycanda qonaq heç vaxt yad insan hesab olunmayıb. Əksinə, evə gələn qonaq ev sahibinin bərəkəti, ruzi-bərəkətinin artmasının rəmzi kimi qəbul edilib. Qloballaşmanın sürətləndiyi, insanların bir-birinə ayırdığı vaxtın getdikcə azaldığı müasir dövrdə də Azərbaycan xalqı qonaqpərvərlik ənənəsini qoruyub saxlayan nadir xalqlardan biri hesab olunur.***



Məhz buna görə də ölkəmizə gələn xarici turistlərin əksəriyyəti Azərbaycan haqqında ilk təəssüratlarını danışarkən təbiətdən, memarlıqdan və mətbəxdən əvvəl insanların səmimiyyətini və qonaqpərvərliyini xüsusi vurğulayırlar. Azərbaycanın müxtəlif bölgələrində qonaq qarşılamaq forması fərqli olsa da, mahiyyət eynidir: hörmət, ehtiram və səmimiyyət. Keçmişdə kəndlərdə evlərin qapıları demək olar ki, heç vaxt kilidlənməzdi. Uzaq yoldan gələn yolçu tanımadığı kənddə belə gecələmək üçün rahatlıqla bir evə üz tuta bilərdi. Ev sahibi onu tanıyıb-tanımamasından asılı olmayaraq, əvvəlcə süfrə açar, sonra isə ehtiyaclarını soruşardı. Bu münasibət xalqımızın mənəvi zənginliyinin göstəricisi idi. Azərbaycan ailələrində qonağın qarşılanması xüsusi mərasim kimi qəbul olunurdu. Evə daxil olan qonağa ilk növbədə ən rahat yer göstərilər, ardınca çay süfrəsi açılardı. Çay mədəniyyəti də qonaqpərvərliyin ayrılmaz hissəsidir. Armudu stəkanda təqdim olunan çay, mürəbbə, limon, müxtəlif şirniyyatlar və səmimi söhbət Azərbaycan evinin simvoluna çevrilib.

Qonağın süfrədən ac qalxması ev sahibi üçün ayıb sayılıb. Buna görə də süfrədə imkan daxilində müxtəlif yeməklər hazırlanır, ev sahibi qonağın rahatlığı üçün hər cür şərait yaratmağa çalışırdı. Xüsusilə bayram günlərində, toy və nişan mərasimlərində, Novruzda qonaqpərvərlik daha geniş şəkildə özünü göstərirdi.

Milli mətbəximiz də qonaqpərvərlik ənənəsinin mühüm hissəsidir. Plov, dolma, bozbaş, piti, kabab, qutab, paxlava, şəkərbura kimi milli yeməklər yalnız qidalanma vasitəsi deyil, həm də qonağa verilən dəyərin ifadəsidir. Azərbaycanın hər bölgəsinin özünəməxsus yemək mədəniyyəti var və bu müxtəliflik ölkəmizin zəngin mədəni irsindən xəbər verir. Azərbaycanın kəndlərində bu ənənələr bu gün də yaşamaqdadır və qonaq gələndə bütün ailə üzvləri onun qarşılanmasına çalışır. Ev sahibi ən yaxşı otağı qonağa verir, ən yaxşı yeməklər hazırlanır. Bu münasibət maddi imkanla deyil, mənəvi zənginliklə ölçülür.

Qonaqpərvərlik təkcə evdə deyil, cəmiyyətdə də özünü göstərir. Yol soruşan insana kömək etmək, yaşlılara diqqət göstərmək, ehtiyacı olanlara dəstək olmaq da xalqımızın qonaqpərvərlik və humanizm anlayışının tərkib hissəsidir.

Son illər ölkəmizdə turizmin inkişafı bu milli xüsusiyyətin beynəlxalq səviyyədə tanınmasına da şərait yaradıb. Azərbaycana gələn turistlər yalnız tarixi abidələri deyil, insanların mehriban münasibətini də ölkəmizin üstünlüklərindən biri kimi qiymətləndirirlər. Bir çox beynəlxalq səyahət bloqları və turizm platformalarında Azərbaycan “qonaqpərvər insanlar ölkəsi” kimi təqdim edilir.

Bununla yanaşı, müasir həyat tərzi müəyyən dəyişikliklər də yaradıb. Böyük şəhərlərdə insanlar daha məşğul həyat yaşayır, ailədaxili ünsiyyət əvvəlki qədər geniş olmur. Buna baxmayaraq, qonaq gələndə süfrə açmaq, çay təqdim etmək, səmimi münasibət göstərmək kimi ənənələr hələ də qorunur. Sosial şəbəkələrin və rəqəmsal texnologiyaların geniş yayıldığı dövrdə gənclərin milli dəyərlərə marağının artırılması xüsusi əhəmiyyət daşıyır. Məktəblərdə, ailələrdə və mədəni tədbirlərdə qonaqpərvərlik ənənələrinin təbliği gələcək nəsillərin milli kimliyinin formalaşmasına mühüm töhfə verə bilər. Ekspertlər hesab edirlər ki, qonaqpərvərlik təkcə mənəvi dəyər deyil, həm də ölkənin turizm potensialını gücləndirən mühüm amildir. Xarici turist üçün yalnız gözəl təbiət və rahat otel kifayət etmir. Onun yaddaşında qalan əsas məqam insanlarla qurduğu münasibətdir. Bu baxımdan Azərbaycan öz milli xüsusiyyətini iqtisadi üstünlüyə də çevirə bilir. Milli-mənəvi dəyərlərin qorunması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Tarixi irsin, milli adət-ənənələrin və mədəniyyət nümunələrinin yaşadılması ilə bağlı həyata keçirilən layihələr qonaqpərvərlik ənənəsinin də gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Əslində, qonaqpərvərlik, sadəcə, süfrənin zənginliyi deyil. Ən böyük qonaqpərvərlik insanın qarşısındakı şəxsə hörmətlə yanaşması, onu diqqətlə dinləməsi, özünü rahat hiss etdirməsidir. Azərbaycan xalqı məhz bu xüsusiyyəti ilə əsrlər boyu seçilib.

Bu gün dünyanın bir çox ölkəsində insanlar fərdiləşən həyat tərzinin təsiri ilə qonşularını belə tanımadığı halda, Azərbaycanda hələ də qonşunun qapısını döymək, ehtiyacı olana kömək etmək, qonağı yola salarkən arxasınca xeyir-dua vermək ənənəsi yaşayır. Bu isə milli kimliyimizin və mənəvi sərvətimizin ən qiymətli nümunələrindən biridir.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən kulturoloq Aydın Xan Əbilov bildirir ki, Azərbaycanın yerləşdiyi coğrafi mövqe xalqımızın milli xarakterinin və mənəvi dəyərlərinin formalaşmasında mühüm rol oynayıb.** Onun sözlərinə görə, Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan tarixboyu İslam, xristianlıq, zərdüştilik və digər mədəni təsirlərin kəsişdiyi məkan olub. Bu amil azərbaycanlıların müxtəlif xalqların müsbət xüsusiyyətlərini mənimsəməsinə şərait yaradıb, eyni zamanda xalqımızın bəşəri dəyərə çevrilən özünəməxsus ənənələrinin formalaşmasına səbəb olub. Həmin dəyərlərin ən önəmlilərindən biri də qonaqpərvərlikdir.

Onun sözlərinə görə, qonaqpərvərlik Azərbaycan xalqının milli kimliyini və dünyagörüşünü ifadə edən əsas xüsusiyyətlərdən biridir. Tarixən azərbaycanlılar ev tikərkən ən yaxşı otağı qonaq üçün nəzərdə tutub, süfrənin ən ləziz nemətlərini qonağın qarşısına qoyublar. Keçmişdə hörmətli qonaq həyətə daxil olarkən onun şərəfinə qurban kəsilməsi, ən yaxşı quzulardan kabab və plov hazırlanması, şərbət təqdim edilməsi xalqımızın qonağa verdiyi yüksək dəyərin göstəricisi olub.

A. Əbilov qeyd edib ki, “Qonaq Allah qonağıdır”, “Qonaqsız ev xarabalığa bənzər” kimi atalar sözləri də bu ənənənin xalqın həyat fəlsəfəsində nə qədər mühüm yer tutduğunu göstərir. Bu dəyər bu gün də ailə münasibətlərində, müxtəlif mərasimlərdə və ictimai həyatda yaşamaqda davam edir.

Ekspert vurğulayır ki, Azərbaycanın mədəni irsinin qorunub saxlanılmasında da qonaqpərvərlik mühüm rol oynayır. Onun fikrincə, ölkəmizin Böyük İpək yolu üzərində yerləşməsi tarix boyu müxtəlif xalqlar arasında əlaqələrin inkişafına şərait yaradıb. Karvansaraylar və hamamlar yalnız memarlıq abidələri deyil, həm də uzaq ölkələrdən gələn qonaqların qəbul edildiyi, istirahət etdiyi və ünsiyyət qurduğu məkanlar kimi fəaliyyət göstərib. Bu baxımdan qonaqpərvərlik Azərbaycanın tarixində mühüm kommunikasiya vasitələrindən biri olub.

A.Əbilov hesab edir ki, bu ənənə bu gün də ölkənin turizm potensialının gücləndirilməsində mühüm rol oynaya bilər. Onun sözlərinə görə, qonaqpərvərlik yalnız milli xüsusiyyət deyil, eyni zamanda, Azərbaycanın iqtisadi inkişafına xidmət edən mühüm amillərdən biri kimi qiymətləndirilməlidir.

Ekspert bildirir ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər zamanı Azərbaycan xalqının qonaqpərvərliyi xarici qonaqlar tərəfindən yüksək qiymətləndirilib. Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq yarışlar zamanı Azərbaycana gələn qonaqlar özlərini doğma mühitdə hiss etdiklərini dəfələrlə dilə gətiriblər. Onun sözlərinə görə, insanların gülərüzlüyü, səmimiyyəti, yardımsevərliyi və tanımadığı insana belə yol göstərməyə hazır olması ölkəmiz haqqında müsbət təəssürat yaradır. Turizmdə də bu amil xüsusi əhəmiyyət daşıyır. Turistlər kobud münasibət və soyuq davranışla qarşılaşdıqları ölkələrə yenidən səfər etməyə maraq göstərmirlər. A. Əbilovun fikrincə, Azərbaycan qonaqpərvərliyi yalnız zəngin süfrə ilə ölçülmür. Bu dəyər milli mətbəxdə, musiqidə, rəqslərdə, insanların bir-birinə münasibətində, ailə dəyərlərində və ümumilikdə azərbaycanlıların həyat tərzində öz əksini tapır. Məhz buna görə qloballaşma şəraitində də qonaqpərvərlik Azərbaycan kimliyinin əsas göstəricilərindən biri olaraq qalır.

Ekspert bununla yanaşı vurğulayır ki, son illər qonaqpərvərlik ənənələrinin təqdim olunma formasında müəyyən dəyişikliklər müşahidə edilir. Onun sözlərinə görə, insanlar əvvəlki dövrlərlə müqayisədə bir-birini daha az evində qonaq edir, daha çox restoran və kafelərdə görüşməyi üstün tuturlar. O hesab edir ki, bu, müasir həyat tərzinin diktə etdiyi təbii dəyişiklikdir.

A. Əbilov qeyd edib ki, bu yanaşma, ilk növbədə, rahatlıq amili ilə bağlıdır. Belə ki, ev sahibinin, xüsusilə də evdarlıq işlərini görən qadınların yükünü azaltmaq məqsədilə qonaqların restoran və ya kafelərdə qəbul edilməsi daha geniş yayılır.

Ekspertin fikrincə, dünyanın bir çox ölkəsində qonaqların rahatlığının təmin olunması üçün otel və mehmanxana xidmətlərindən istifadə edilir. O hesab edir ki, qlobal tendensiyalar Azərbaycanın da qonaqpərvərlik ənənələrinə müəyyən təsir göstərəcək və gələcəkdə qonaqların rahatlığının təmin edilməsi məqsədilə otel və mehmanxana sistemindən daha geniş istifadə olunacaq. Onun sözlərinə görə, əsas məsələ qonağın harada qəbul olunması deyil, ona göstərilən diqqət, qayğı və səmimi münasibətin qorunub saxlanılmasıdır.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Milli adət ənənələr, elm və mədəniyyətin təbliği

*“Qonaqpərvərlik Azərbaycan xalqının milli kimliyini və dünyagörüşünü ifadə edən əsas xüsusiyyətlərdən biridir*

## XƏBƏRİNİZ OLSUN...



■ ABŞ İrana qarşı hərbi əməliyyat zamanı Avropadakı hərbi bazalardan təxminən 4-5 min uçuş həyata keçirib. NATO-nun Baş katibi Mark Rutte bu barədə “Financial Times” qəzetinə müsahibəsində danışıb.

---

■ “BakıKart” kartlarının satış qiyməti 2 manatdan 3 manata qaldırılıb. Dəyişiklik yalnız yeni əldə edilən “BakıKart” kartlarının satış qiymətinə aiddir. Kart balanslarında da hər hansı dəyişiklik edilməyəcək.

---

■ İspaniyanın Las-Palmas-de-Qran-Kanariya şəhərində yeniyetmələr arasında cüdo üzrə Avropa çempionatı davam edir. Yarışın ikinci günündə Azərbaycan millisinin üzvü Sadiq Məmmədov (73 kq) finala yüksələrək gümüş medal qazanıb. Daha bir cüdoçumuz İlkin Qarayev (66 kq) üçüncü yeri tutaraq bürünc medala layiq görülüb.

---



■ İranəsilli Elham (Ellie) Kohanim ABŞ-nin BMT-dəki Daimi Nümayəndəliyində baş siyasət müşaviri vəzifəsinə təyin olunub. Bu barədə ABŞ-nin BMT-dəki daimi nümayəndəsi Mayk Uolts məlumat verib.

---

■ Fransada 2027-ci il prezident seçkilərinin birinci turunun aprelin 18-də, ikinci turunun isə mayın 2-də keçirilməsi planlaşdırılır. Bu barədə Ouest-France qəzeti məlumat yayıb.

---

■ Çinli hərbi mütəxəssislər ötən il Rusiya ordusunun hərbi qulluqçularına gizli təlim keçib. Bu barədə iki avropalı rəsminin “Reuters“ə ötürdüyü sənəddə deyilir. Məlumata görə, təlim Rusiya Müdafiə Nazirliyinin rəhbərliyinin razılığı əsasında keçirilib və bu prosesdə azı 4 rusiyalı və çinli general iştirak edib.

---



■ Rezidentlər indiyədək 567 milyon manat vəsaitə qənaət ediblər. İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, tətbiq olunan güzəştlər nəticəsində sənaye parklarının rezidentləri indiyədək 567 milyon manat, təkcə 2025-ci ildə isə 42,3 milyon manat vəsaitə qənaət ediblər.

---

■ Akvakultura təsərrüfatlarının fəaliyyətinin rəsmiləşdirilməsini asanlaşdırmaq məqsədilə qanunvericiliyin tələblərinin sadələşdirilməsi vacib hesab edilir. Bu barədə Kənd Təsərrüfatı Nazirliyinin Balıqçılıq və Akvakultura Mərkəzindən bildirilib.

---

■ Azərbaycan Premyer Liqasında son 5 ilin tamaşaçı statistikası açıqlanıb. Bu barədə Peşəkar Futbol Liqası məlumat yayıb. Sonuncu 2025/2026 mövsümündə keçirilən 198 oyunda ümumilikdə 285 min 778 tamaşaçı qeydə alınıb və hər qarşılaşmaya orta hesabla 1443 azarkeş düşüb.

# Dünyanın ən güclü dövləti 250 yaşında

***ABŞ-ın Müstəqillik Bəyannaməsinin qəbul edilməsinin 250 illiyi münasibətilə Bakıda rəsmi mərasim keçirilib. Tədbirdə diplomatlar, ictimai-siyasi xadimlər, media nümayəndələri və digər qonaqlar iştirak ediblər. Tədbirdə çıxış edən Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov bildirib ki, Amerika xalqı son iki əsr yarım ərzində dinindən, irqindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlar üçün bərabər hüquqların təmin olunduğu, azad sahibkarlıq və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan güclü dövlət qurmağa nail olub.***



O qeyd edib ki, Azərbaycan ilə ABŞ arasında diplomatik münasibətlərin qurulmasından ötən 34 il ərzində ticarət-iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi və digər qarşılıqlı maraq doğuran sahələrdə tərəfdaşlıq uğurla inkişaf edib. “Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması Azərbaycan-ABŞ münasibətlərinin inkişafında tarixi mərhələ kimi yüksək qiymətləndirilir, iqtisadi əməkdaşlığın institusional mexanizmlərinin daha da möhkəmləndirilməsinə xidmət edir”, - Samir Şərifov deyib.

“Amerika Birləşmiş Ştatları ilə 34 il əvvəl diplomatik münasibətlər qurmuş Azərbaycan Respublikası iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın, habelə qarşılıqlı maraq doğuran digər sahələrdə münasibətlərin inkişafına daim xüsusi önəm verib. Terrorçuluğa qarşı qlobal koalisiyaya Azərbaycanın qoşulması, qlobal enerji təhlükəsizliyinin təmin edilməsinə Azərbaycanın ABŞ ilə birlikdə verdiyi töhfələr bunun bariz nümunəsidir”, - Samir Şərifov vurğulayıb.

Baş nazirin müavini qeyd edib ki, bu gün Azərbaycan-ABŞ münasibətləri yüksək dinamizmlə inkişaf edir və ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin avqust ayında baş tutmuş ABŞ səfəri Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanğıcını qoyub.

“Bu səfər çərçivəsində ABŞ Prezidenti cənab Donald Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması, Zəngəzur dəhlizinin açılmasını və fəaliyyətini təmin edən Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutunun yaradılması regionda davamlı sülh və əməkdaşlıq üçün yeni imkanlar yaradıb. İkitərəfli münasibətlərdə formalaşmış müsbət dinamikanın davamı olaraq Azərbaycan və ABŞ liderlərinin sonrakı görüşləri, ABŞ-ın Vitse-prezidenti cənab Vensin cari ilin fevral ayında Azərbaycana səfəri ölkələrimiz arasında yüksək səviyyəli dialoqun intensivliyini bir daha nümayiş etdirir”. Daha sonra ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Emi Karlon çıxış edib. O bildirib ki, Azərbaycan və Ermənistan 2025-ci il avqustun 8-də keçirilən tarixi Sülh Sammitində onilliklərlə davam edən münaqişədən sonra yeni səhifə açmaq üçün misilsiz fürsətdən yararlanıblar. Emi Karlon qeyd edib ki, Prezident Donald Trampın və beynəlxalq ictimaiyyətin şahidliyi ilə keçirilən sammitdə tərəflər gələcəyi qarşıdurma deyil, əlaqəlilik, əməkdaşlıq və rifah üzərində qurmağa sadiq olduqlarını bəyan ediblər.

O, həmçinin Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIP) və ABŞ-Azərbaycan Strateji Tərəfdaşlığı çərçivəsində Cənubi Qafqazın Şərqlə Qərbi birləşdirən, qlobal iqtisadiyyata inteqrasiya olunmuş, ticarətin genişləndirilməsinə, enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və iqtisadi artıma töhfə verən regiona çevrilməsi istiqamətində birgə iş aparıldığını vurğulayıb. Rəsmi çıxışlardan sonra tədbir şam yeməyi ilə davam edib.

## Region

***Türkmənistan prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana səfərindən sonra dünya iqtisadi gündəmi türkmən qazının Avropa bazarına nəqli məsələsini müzakirə etməkdədir. Əlbəttə, indiyədək türkmən qazının əsas alıcıları Asiya ölkələridir və hətta hazırda Əfqanıstandan keçməklə Pakistana, oradan da Hindistana uzanacaq TAPI qaz kəməri tikilməkdədir. Amma rəsmi Aşqabadın məqsədi ölkənin əsas gəlir qaynağı olan təbii qazın ticarətini daha çox şaxələndirməklə ixrac təhlükəsizliyini təmin etməkdir.***



# Türkmən qazı Avropa yolunda

Qeyd edək ki, Türkmənistan qazını Özbəkistan, Qırğızıstan və Tacikistan vasitəsilə Çinə nəql edən dörd mərhələli Orta Asiya-Çin Boru Kəməri hələ 2009-cu ildə istifadəyə verilib və hazırda A, B və C mərhələləri aktivdir və bu, Çinə ildə 55 milyard kubmetr qazın çatdırılmasına imkan verir. 35 milyard kubmetr tutumlu son mərhələ olan D hissəsinin isə təxminən 2030-cu ildə istifadəyə verilməsi və bununla da, ümumi tutumun 30 milyard kubmetr artırılması gözlənilir.

### Daha çox bazar

**Təbii qaz ticarəti üçün alternativ boru kəməri layihələri üzərində işləyən Türkmənistan, tamamlanmaq üzrə olan 1814 kilometrlik Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan (TAPI) Təbii Qaz Boru Kəməri vasitəsilə gələcəkdə Əfqanıstan, Pakistan və Hindistana ildə 33 milyard kubmetr qaz satmağı hədəfləyir.**

Qaz hasilatını və ixracını artırmaq səylərini davam etdirən Türkmənistan, 2019-cu ildə Rusiya ilə ildə 5,5 milyard kubmetr qaz satışı üçün 5 illik müqavilə imzalayıb. 2021-ci ildə imzalanmış svop müqaviləsinə əsasən, Türkmənistan, həmçinin İran vasitəsilə Azərbaycana ildə təxminən 2 milyard kubmetr qaz satır.

Dünyanın ən böyük qaz yataqlarına sahib ölkələrindən olan Türkmənistan isə indiki istehsal və ixrac həcmləri ilə




qane olmur və çalışır ki. Yeraltı zənginliklərindən daha çox faydalansın. Bunun üçün isə mütləq şəkildə etibarlı və sabit ixrac bazarı tapmalıdır. Ona görə də, tamamilə idxal yanacağa əsaslanan Avropa qaz bazarı Türkmənistanın maraqlarını təmin edir...

### Ənənəvi narazılar

**Ancaq bir məsələ var ki, Trans-Xəzər Boru Kəmərinin tikilməməsi üçün Moskva dəridən-qabıqdan çıxır. Hələ beş il əvvəldən başlayaraq Moskva "Qazprom"un vaitəsilə türkmən qazını almaq və ya svop üsulu ilə İran üzərindən Türkiyəyə ixrac etməsi üçün təşviq etməyə çalışır.**

Kremldə hesab edirlər ki, bu səylər reallaşsa, Türkmənistan qazının Trans-Xəzər Boru Kəməri vasitəsilə birbaşa Avropa bazarlarına göndərilməsi Aşqabad üçün seçim olmayacaq. İran da narazıdır. Onlar da Rusiyadakılar kimi düşünürlər: gah dənizdə ekoloji problem yaranacağını uydurur, gah da Qərbin şirkətlər vasitəsilə bölgəyə daxil olmasından qorxurlar. Son siyasi təmaslar, verilən bəyanatlar və göstərilən əzm Ukrayna müharibəsi səbəbindən mövqeləri zəifləyən və çıxılmaz duruma düşmüş Rusiyanın, eləcə də ABŞ və İsrailin aviahücumları ilə çox ciddi yaralar almış İranın təzyiqlərinin əbəs olduğunu üzə çıxarır. Çünki dünyanın fövqəldövləti olan ABŞ bu məsələdə tərəfini seçərək Türkmənistanın Qərbə açılışını dəstəklədiyi üçün türkmən qazının Avropa bazarına çatdırılması ümidləri artır.

### Vacib dəstək

**Bu arada, Türkmənistanın xarici işlər naziri Rəşid Meredovun hələ aprel ayında Antalya Diplomatik Forumunda "Pioritetimiz Türkmənistan qazını Avropaya çatdırmaqdır" açıqlaması qısa zamanda konkret olaraq ABŞ tərəfindən dəstəklənib.**

May ayında Meredovla ABŞ-nin Dövlət Katibi Marko Rubio arasında keçirilən görüşdə Rubio "Türkmənistanın Trans-Xəzər marşrutları vasitəsilə təbii qaz ixracının şaxələndirilməsinə güclü dəstək" bildirib. ABŞ Dövlət Departamentinin sözçüsü Tommi Piqot bildirib ki, Rubio Meredova "son ticarət müqavilələrindəki irəliləyiş"ə görə təşəkkürünü bildirib və enerji, təhlükəsizlik və ticarət sahələrində əməkdaşlığın genişləndirilməsini müzakirə ediblər.

Rubionun qeyd etdiyi "son müqavilələr" bölgədəki enerji balansını dəyişdirəcək xarakter daşıyır. Malayziyanın Petronas şirkəti, BƏƏ-nin dövlət şirkəti ADNOC və onun investisiya qolu XRG ilə birlikdə Xəzər dənizində neft yatağının işlənməsi üçün müqavilə imzalanıb.

Petronas-ın Türkmənistanda 30 illik mövcudluğuna baxmayaraq, bu müqavilə Çindən başqa əsas oyunçuların ölkəyə daxil olması baxımından dönüş nöqtəsi kimi qəbul edilir. Digər diqqətçəkən inkişaf isə ADNOC/XRG-nin Azərbaycanın dövlət şirkəti SDH-də (Cənub Qaz Dəhlizi) 30 faiz pay əldə etmək prosesində olmasıdır. Bu addım ADNOC-a Azərbaycan qazının Avropaya nəqlində birbaşa söz sahibi olmaq imkanı yaradacaq.

Bundan əlavə, Petronas və ADNOC dünyanın ən böyük təbii qaz yataqlarından olan Türkmənistandakı Kalkınışın yatağının işlənmə mərhələlərindən biri üçün təklif verirlər.

Yəni, adıçəkilən şirkətlərin fəaliyyətini nəzərə alsaq, artıq Rusiyanın bölgədə mövqelərinin 15-20 il önceki kimi güclü olmadığı deyə bilərik. Güman ki, Vaşinqtonun sərt mövqeyi Türkmənistan qazının nəzərdə tutulmuş layihələr əsasında Avropaya çatdırılmasının qarşısında heç bir maneə qalmayacaq. Bu arada, Malayziyanın Baş naziri Ənvər İbrahimin 19 iyunda Aşqabada səfəri Petronasın Türkmənistandakı mövcudluğunu daha da möhkəmləndirib. Səfər zamanı iki vacib saziş imzalanıb:

**1. Karbohidrogen ehtiyatlarının işlənməsi sahəsində uzunmüddətli əməkdaşlıq haqqında hökumətlərarası saziş,**

**2. Türkmənqaz-la Petronas arasında məxfilik sazişi.**

Mənbələrə görə, bu sazişlər Petronas-a Kalkınış yatağının ehtiyatları haqqında məxfi məlumatlara çıxış və sahildən Xəzər dənizinə qaz nəql edən Şərq-Qərb boru kəmərinə nəzarət imkanı verəcək. Petronas-ın Kalkınışın istismarını birbaşa öz üzərinə götürməsi ilə bağlı yekun qərar verilməsə də, bu istiqamətdə bütün ilkin addımlar atılıb. Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun 22 iyunda Azərbaycana dövlət səfəri bu prosesin son mərhələsini qeyd edib. İki ölkə arasında imzalanan sazişlər "strateji əməkdaşlığın" başlanğıcı kimi təsvir olunub. Prezident İlham Əliyev bildirib ki, "Türkmənistan və Azərbaycan geniş mineral və enerji ehtiyatlarına malik iki ölkədir. Buna görə də məqsədimiz səylərimizi birləşdirərək əməkdaşlıq etməkdir". Səfərdən dərhal sonra ABŞ Ticarət Nazirliyinin Beynəlxalq Ticarət Administrasiyası (ITA) Bakının regiondakı mərkəzi rolunu vurğulayan bir bəyanat yayıb. İTA Azərbaycanı enerji mərkəzi, logistika dəhlizləri üçün qovşaq nöqtəsi və texnologiya investisiyaları üçün dayanacaq nöqtəsi kimi təsvir edərək, eyni zamanda Amerika şirkətlərini regionla əlaqələndirən institusional strukturu gücləndirməyi öhdəsinə götürüb.

### Nəticə

**Nəticə olaraq qeyd edək ki, hələlik, Rusiya Xəzərətrafı türk ölkələrinin müstəqil qərar qəbul etməsi və iqtisadi çiçəklənməsinə qarşı dirənməyə çalışır.** Məsələn, Kreml bu hadisələrə 18 iyunda sərt bəyanatla cavab verib. Rusiya beş Xəzəryanı dövlətin (Azərbaycan, İran, Qazaxıstan, Rusiya, Türkmənistan) "xarici müdaxilənin qəbuledilməzliyi" prinsipi ətrafında birləşməli olduğunu xatırladıb.

Ancaq yuxarıda qeyd etdiyimiz kimi, ABŞ-ın açıq dəstəyi, Malayziyanın Petronas və BƏƏ-nin ADNOC kimi beynəlxalq enerji nəhənglərinin iştirakı və Azərbaycan-Türkmənistan oxu boyunca diplomatik fəaliyyət Türkmənistan qazının Avropaya çatması üçün "Xəzər dəhlizi" yaratmaq səylərini sürətləndirib. Rusiya bu prosesi öz təsir dairəsinə müdaxilə kimi görərək alternativ diplomatik xətt qurmağa çalışsa da. İstədiklərinə nail olmayacağı aşkardır.

✍ *Vüsal Tağıbəyli*

# Parçalanmış torpaq sahələri birləşdirilir



***Azərbaycanda kənd təsərrüfatı təyinatlı torpaq sahələri ilə bağlı yenilik gözlənilir. Bununla bağlı Milli Məclisdə müzakirəyə çıxarılan qanun layihəsi kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyasını hüquqi müstəviyə gətirir. Məqsəd illərdir kənd təsərrüfatının əsas problemlərindən biri hesab olunan xırda və pərakəndə torpaq sahələrinin yaratdığı çətinlikləri aradan qaldırmaq, torpaq resurslarından daha səmərəli istifadəni təmin etməkdir. Mütəxəssislər uzun illərdir bildirirlər ki, kənd təsərrüfatında məhsuldarlığın aşağı olmasının əsas səbəblərindən biri torpaq sahələrinin həddindən artıq parçalanmasıdır.***

## Aqrar

Eyni sahibə məxsus torpaq sahələrinin müxtəlif ərazilərdə yerləşməsi, yaxud kiçik paylara bölünməsi müasir texnikadan istifadəyə mane olur, suvarma və meliorasiya sistemlərinin qurulmasını çətinləşdirir, istehsal xərclərini artırır. Nəticədə həm fermerlər daha çox xərc çəkir, həm də torpağın potensialından tam istifadə etmək mümkün olmur.

Məhz bu problemlərin həlli məqsədilə hazırlanan qanun layihəsi torpaq konsolidasiyası anlayışını ilk dəfə qanunvericiliyə daxil edir. Yeni qaydalara əsasən, torpaq mülkiyyətçilərinin razılığı ilə kənd təsərrüfatı sahələrinin birləşdirilməsi, bölünməsi, sərhədlərinin yenidən müəyyənləşdirilməsi və dəyişdirilməsi mümkün olacaq. Bununla yanaşı, ehtiyac yarandıqda suvarma sistemləri, kənd yolları, enerji və digər mühəndis-kommunikasiya infrastrukturu da yenidən planlaşdırılacaq.

Qanun layihəsində torpaq sahiblərinin hüquqlarının qorunması xüsusi yer tutur. Konsolidasiya zamanı hər bir torpaq sahəsinin bazar dəyəri müstəqil qiymətləndirici tərəfindən müəyyən ediləcək. Əgər yeni ayrılan torpaq sahəsinin dəyəri əvvəlkindən aşağı olarsa, yaranan fərq kompensasiya şəklində ödəniləcək. Əksinə, konsolidasiya nəticəsində torpağın bazar dəyəri artarsa, torpaq sahibindən əlavə ödəniş tələb edilməyəcək. Bununla da prosesin ədalətli və könüllülük prinsipləri əsasında həyata keçirilməsi nəzərdə tutulur.

Qanun layihəsinin diqqətçəkən yeniliklərindən biri də torpaq bazarında qonşu torpaq sahiblərinə üstünlük hüququnun verilməsidir. Belə ki, kənd təsərrüfatı təyinatlı torpaq satışa çıxarıldıqda həmin torpaqla ümumi sərhədə malik olan mülkiyyətçi onu eyni şərtlərlə almaq hüququ əldə edəcək. Bu mexanizm torpaq sahələrinin təbii yolla böyüməsinə və iri təsərrüfatların formalaşmasına şərait yaratmağı hədəfləyir.

Sənəddə miras yolu ilə torpaq sahələrinin daha da parçalanmasının qarşısını almağa yönələn dəyişikliklər də yer alıb. Təklifə görə, kənd təsərrüfatı torpaqları vərəsələr arasında yalnız hər hissənin ən azı 5 hektar olması şərti ilə bölünə biləcək. Əgər bu mümkün olmazsa, torpaq bütöv şəkildə satılacaq, əldə olunan vəsait isə vərəsələr arasında bölüşdürüləcək. Bu yanaşma gələcəkdə torpaq fondunun daha da xırdalanmasının qarşısını almağa hesablanıb. Konsolidasiya prosesi xüsusi hazırlanacaq layihə əsasında həyata keçiriləcək. Layihədə mövcud torpaq sahələrinin sərhədləri, ölçüləri, yerləşməsi, bazar qiyməti və hüquqi statusu təhlil olunacaq, daha sonra yeni bölgü torpaq mülkiyyətçiləri ilə razılaşdırılacaq. Yekun qərarı isə müvafiq dövlət qurumunun yaratdığı komissiya verəcək. Komissiyanın təsdiq etdiyi bölgü sənədi daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsas sənəd olacaq.

Qanun layihəsi yalnız torpaq münasibətlərini deyil, həm də kadastr sistemini və torpaq bazarını əhatə edir. Belə ki, konsolidasiya nəticəsində dəyişən sərhədlər dövlət kadastrında yenilənəcək, yeni infrastruktur obyektlərinin planlaşdırılması üçün hüquqi əsas yaradılacaq. Bununla yanaşı, konsolidasiya məqsədilə bağlanan torpaq əqdləri də ayrıca hüquqi mexanizmlə tənzimlənəcək. Layihə müəllifləri hesab edirlər ki, yeni hüquqi mexanizm kənd təsərrüfatında məhsuldarlığın artırılmasına, istehsal xərclərinin azalmasına, müasir texnologiyaların tətbiqinin genişlənməsinə və ərzaq təhlükəsizliyinin güclənməsinə ciddi töhfə verəcək. Sənəd hazırlanarkən Türkiyə başda olmaqla, torpaq konsolidasiyası sahəsində uğurlu təcrübəyə malik ölkələrin qanunvericiliyi də öyrənilib və yerli şəraitə uyğunlaşdırılıb.

> *"Hazırda Azərbaycanda pay torpaqlarının xırda hissələrə bölünməsi fermerlərin fəaliyyətini çətinləşdirən əsas amillərdən biridir*



**Akif Nəsirli,**
Liberal İqtisadçılar Mərkəzinin rəhbəri

**■ Məsələyə münasibət bildirən Liberal İqtisadçılar Mərkəzinin rəhbəri Akif Nəsirli deyir ki, torpaq konsolidasiyası əslində kənd təsərrüfatında səmərəliliyin artırılmasına xidmət edən iqtisadi mexanizmdir və bu prosesi mülkiyyət hüququnun məhdudlaşdırılması kimi qiymətləndirmək düzgün deyil.**

Onun sözlərinə görə, hazırda Azərbaycanda pay torpaqlarının xırda hissələrə bölünməsi fermerlərin fəaliyyətini çətinləşdirən əsas amillərdən biridir: "Fermerlərin əksəriyyətinin torpaq sahələri kompakt formada deyil. Bir sahibə məxsus torpaqlar müxtəlif ərazilərdə yerləşdiyi üçün həm texnikanın hərəkəti, həm əkin-biçin işlərinin təşkili, həm də suvarma prosesi əlavə vaxt və xərc tələb edir. Bu isə istehsalın maya dəyərini artırır və torpağın potensialından tam istifadə etməyə imkan vermir". Ekspert bildirir ki, konsolidasiya nəticəsində torpaq sahələrinin daha rasional yerləşməsi kənd təsərrüfatı üçün bir sıra üstünlüklər yaradacaq:

"Torpaq sahələri böyüdükcə və vahid massivlər şəklində formalaşdıqca müasir texnikadan istifadə daha səmərəli olacaq. Eyni zamanda, suvarma və meliorasiya infrastrukturunun qurulması asanlaşacaq, aqrotexniki tədbirlərin həyata keçirilməsi daha az xərc tələb edəcək. Bütün bunlar məhsuldarlığın yüksəlməsinə və fermerlərin gəlirlərinin artmasına müsbət təsir göstərə bilər". A.Nəsirli hesab edir ki, bu islahatın uğurlu olması üçün hüquqi təminatlar xüsusi əhəmiyyət daşıyır: "Burada ən vacib məqam torpaq mülkiyyətçilərinin hüquqlarının etibarlı şəkildə qorunmasıdır. Prosesin hansı mexanizmlə həyata keçiriləcəyi, qiymətləndirmənin necə aparılacağı və iştirakın tam könüllü əsasda olub-olmayacağı cəmiyyət üçün əvvəlcədən aydın izah edilməlidir. Fermerlər əmin olmalıdırlar ki, konsolidasiya onların maraqlarına xidmət edir və mülkiyyət hüquqlarına xələl gətirməyəcək. Bu yanaşma təmin olunarsa, islahat kənd təsərrüfatının inkişafına real töhfə verə bilər".

✍ *Sevinc*

# Yaşlı həkimlərə yaşıl işıq

***Azərbaycanın regionlarında həkim çatışmazlığı uzun illərdir səhiyyə sisteminin ən həssas problemlərindən biri olaraq qalır. Xüsusilə ucqar rayon və kəndlərdə ixtisaslı tibbi kadrların azlığı həm əhalinin keyfiyyətli səhiyyə xidmətlərinə çıxışını məhdudlaşdırır, həm də mövcud tibb işçilərinin üzərinə düşən yükü artırır. Bu baxımdan Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanovun regionlarda 65 yaş həddinə çatmış həkimlərin peşə fəaliyyətini davam etdirməsinə imkan yaradılacağı barədə açıqlaması diqqət mərkəzinə çevrilib.***



## Səhiyyə

Bununla yanaşı, mövzu bir sıra vacib sualları da gündəmə gətirib. Maraqlıdır, bu qərar regionlarda həkim çatışmazlığını nə dərəcədə azalda bilər? Yaş həddinin yumşaldılması səhiyyə sisteminə hansı üstünlükləri qazandıracaq? Və ən əsası, bu addım illərdir müzakirə olunan problemin həlli istiqamətində gecikmiş qərar deyilmi?

Qeyd edək ki, Azərbaycanda son illərdə səhiyyə infrastrukturunun yenilənməsi, yeni xəstəxanaların tikilməsi və tibbi xidmətlərin genişləndirilməsi istiqamətində mühüm işlər görülsə də, regionlarda kadr təminatı məsələsi hələ də tam həllini tapmayıb. Bir çox rayonlarda müəyyən ixtisaslar üzrə həkim tapmaq çətin olaraq qalır.

### Problem nədən qaynaqlanır?

Mütəxəssislərin fikrincə, problemin əsas səbəblərindən biri gənc həkimlərin böyük hissəsinin paytaxtda və iri şəhərlərdə çalışmağa üstünlük verməsidir. Daha yüksək gəlir imkanları, peşəkar inkişaf mühiti, elmi fəaliyyət perspektivləri və sosial şərait regionlardan paytaxta axını sürətləndirən amillər sırasında göstərilir.

Nəticədə bəzi bölgələrdə uzun illər ərzində formalaşmış tibbi xidmət əsasən yaşlı və təcrübəli həkimlərin fəaliyyəti hesabına qorunub saxlanılıb. Həmin həkimlərin yaş həddinə görə sistemdən ayrılması isə kadr çatışmazlığını daha da dərinləşdirib. Məsələnin mühüm tərəflərindən biri də tibbdə təcrübənin xüsusi əhəmiyyət daşımasıdır. Digər peşələrdən fərqli olaraq, həkimlikdə nəzəri biliklə yanaşı, illərlə formalaşan klinik təcrübə böyük rol oynayır. Xüsusilə regionlarda çalışan və onilliklər ərzində minlərlə xəstəni müalicə etmiş həkimlər yerli əhalinin sağlamlıq göstəricilərini, xəstəliklərin yayılma xüsusiyyətlərini və səhiyyə müəssisələrinin imkanlarını yaxşı bilirlər. Onların birdən-birə sistemdən uzaqlaşdırılması bəzi hallarda bütöv bir rayonun tibbi xidmət imkanlarına təsir göstərə bilir.

Bu baxımdan 65 yaşdan yuxarı həkimlərin fəaliyyətini davam etdirməsinə imkan verilməsi mövcud insan resurslarının qorunması və təcrübənin səhiyyə sistemində saxlanılması baxımından rasional addım kimi qiymətləndirilir.

Bununla belə, bəzi ekspertlər hesab edirlər ki, sözügedən qərar əslində uzun illər əvvəl qəbul edilməli idi. Çünki regionlarda həkim çatışmazlığı yeni yaranmış problem deyil. Son onillikdə müxtəlif səviyyələrdə aparılan müzakirələrdə dəfələrlə bildirilib ki, bəzi rayonlarda təcrübəli həkimlərin pensiya yaşına çatması tibbi xidmətin davamlılığı üçün risk yaradır. Məhz buna görə də bir sıra mütəxəssislər yaş həddinin yenidən nəzərdən keçirilməsini problemin həlli deyil, daha çox mövcud vəziyyətin diktə etdiyi zəruri addım kimi qiymətləndirirlər. Onların fikrincə, əgər regionlarda həkim təminatı məsələsi vaxtında həll olunsaydı, bu gün yaşlı mütəxəssislərin işdə saxlanılması əsas çıxış yolu kimi gündəmə gəlməzdi.

### Rezidentura təhsili olmayanlar bölgələrə yönəldilə bilər

**Əhliman Əmiraslanovun açıqladığı digər mühüm məqam rezidentura təhsili almamış məzunların əlavə hazırlıq proqramları vasitəsilə regionlara yönləndirilməsi ilə bağlıdır. Bu addımın da əsas məqsədi bölgələrdə tibbi kadr çatışmazlığını azaltmaqdır.**

Əgər yaşlı və təcrübəli həkimlərin fəaliyyəti davam etdirilərsə, eyni zamanda gənc mütəxəssislərin regionlara axını təmin olunarsa, bu, təcrübənin yeni nəslə ötürülməsi baxımından da mühüm nəticələr verə bilər.

Beləliklə, regionlarda 65 yaşını tamamlamış həkimlərin işləməsinə şərait yaradılması qısamüddətli perspektivdə səhiyyə müəssisələrinin kadr təminatına müsbət təsir göstərə bilər. Lakin ekspertlər vurğulayırlar ki, bu qərarın real effektivliyi yalnız kompleks kadr siyasətinin tərkib hissəsi olduğu halda özünü göstərəcək. Əks təqdirdə, bu addım uzun illərdir mövcud olan problemin müvəqqəti yumşaldılmasından o yana keçməyəcək.

Bu səbəbdən əsas məsələ yaş həddinin artırılması deyil, regionlarda həkim peşəsini cəlbedici etmək və səhiyyə sisteminin kadr bazasını uzunmüddətli perspektivdə gücləndirməkdir. Məhz bu halda qəbul edilən qərar həqiqi nəticə verə bilər.

### Yaş amilinin tətbiqi düzgün yanaşma sayılmır

■ **Mövzu ilə bağlı fikirlərini bölüşən tibb elmləri doktoru, professor Adil Qeybulla bildirib ki, Azərbaycanda həkim çatışmazlığı real problemdir və bu şəraitdə yaş amilinə görə təcrübəli kadrların sistemdən uzaqlaşdırılması düzgün yanaşma deyil.**

Onun sözlərinə görə, həkimlərin peşə fəaliyyəti yalnız yaş göstəricisinə əsasən qiymətləndirilməməlidir:

“Əgər 65 yaşına çatan şəxs əmək qabiliyyətini və əqli fəaliyyətini saxlayırsa, niyə onun təcrübəsindən istifadə olunmasın? Əgər kifayət qədər kadr varsa və ehtiyac yoxdursa, bu ayrı məsələdir. Amma hazırda

> *“İnkişaf etmiş dövlətlərdə də səhiyyə sistemləri kadr çatışmazlığı ilə üzləşir*

həm Azərbaycanda, həm də dünyanın bir çox ölkəsində həkim çatışmazlığı mövcuddur”.

Professor qeyd edib ki, bu problem təkcə ölkəmizə aid deyil. Onun fikrincə, inkişaf etmiş dövlətlərdə də səhiyyə sistemləri kadr çatışmazlığı ilə üzləşir: “Almaniya, İngiltərə və ABŞ kimi ölkələrdə də həkim çatışmazlığı var. Həkimlik çox ağır və məsuliyyətli peşədir. Bir çox hallarda əməkhaqqı görülən işin ağırlığına adekvat olmur. Bu da gənclərin peşəyə marağını azaldan amillərdən biridir”.

A.Qeybulla hesab edir ki, səhiyyədə kadr probleminin həlli üçün əməkhaqqı siyasətinə yenidən baxılması vacibdir. Onun sözlərinə görə, icbari tibbi sığorta sisteminin imkanlarından daha səmərəli istifadə olunarsa, həkim peşəsinin cəlbediciliyi də arta bilər: “Əgər həkimlərin maaş sistemi standartlaşdırılsa və əməyə uyğun qiymətləndirilsə, vəziyyət dəyişə bilər. Hazırda isə həm kadr axını, həm də həkim çatışmazlığı problemi var. Belə bir şəraitdə təcrübəli həkimlərin sistemdən çıxarılması məqsədəuyğun deyil”.

Professorun fikrincə, həkimlərin pensiyaya göndərilməsi məcburi xarakter daşımamalıdır: “65 yaş pensiya həddi həkimlərə şamil edilməməlidir. İstəyən həkim könüllü şəkildə pensiyaya çıxa bilər. Amma yalnız yaşına görə məcburi şəkildə fəaliyyətdən uzaqlaşdırılması səhiyyə sisteminin maraqlarına uyğun deyil və kadr çatışmazlığını daha da dərinləşdirə bilər”.

Qeybulla vurğulayıb ki, təcrübəli həkimlərin fəaliyyətinin davam etdirilməsi xüsusilə regionlarda tibbi xidmətlərin əlçatanlığının qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu yanaşma həm mövcud kadr boşluğunun qismən aradan qaldırılmasına, həm də gənc həkimlərin təcrübəli mütəxəssislərdən bilik və bacarıq öyrənməsinə imkan yarada bilər.

*✍ Sevinc*

# Yurdumuz çiçəklənir

***Qarabağa səfərimiz səhər açılmamış başladı. 21 iyun 2026-cı il, səhər saat 4-də oyanıb hazırlaşdıq, saat 5-də isə yola çıxdıq. Kiçik səfər qrupumuz sürücü Arzuman əmi və “Yazarlar”jurnalının yaradıcı heyəti; Ustad (Zaur Ustac), Tuncay (Tuncay Şəhrili), Gülü bir də bəndəniz olmaqla 5 nəfərdən ibarət idi. Qarşıda bizi uzun, amma bir o qədər də maraqlı bir yol gözləyirdi. Yol boyu hər kəsin fikri bir yerdə idi - illər boyu həsrət qaldığımız Qarabağı görmək.***




Qarabağa - işğaldan azad olunmuş ərazilərə daxil olduqdan sonra ilk dayanacağımız Ağdam oldu. Burada Ağdam məscidini ziyarət etdik. Məscidin həyətində dayanarkən insan istər-istəməz keçmişi xatırlayırdı. Şəhidlərimizin ruhuna dualar oxundu, salavat çevrildi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ustad və Tuncay məsciddə namaz qıldı. Həmin an hər kəsin qəlbində vətən sevgisi hiss olunurdu.

Daha sonra yolumuza davam etdik. Xocalı və Xankəndi istiqamətində hərəkət etdik. Yolboyu gördüyümüz mənzərələr Qarabağın yeni həyatından xəbər verirdi. Xankəndidə diqqətimi xüsusilə bir heykəl çəkdi. Heykəlin üzərində erməni dilində yazı vardı. Bu mənzərə bölgənin keçdiyi mürəkkəb, qalmaqallı tarixi bir daha xatırladırdı. Səhər yeməyi üçün Xankəndi şəhərində yolüstü bir restoranda dayandıq. Çay süfrəsi arxasında həm dincəldik, həm də ətrafı seyr etdik. Uzaqdan görünən Zəfər tağı, Qarabağ Universiteti, dağların qoynunda uzanan yollar və yeni qurulan yaşayış məntəqələri insanda qürur hissi yaradırdı.

Qarabağda diqqətimi çəkən məqamlardan biri də şəhər həyatının canlanması oldu. Küçələrdə avtobuslar işləyirdi, marketlər fəaliyyət göstərirdi. Parklar, istirahət məkanları, yeni tikililər bölgənin yenidən dirçəlişini açıq şəkildə nümayiş etdirirdi. Parkın bir hissəsində piano yerləşdirilmişdi. Dedilər ki, axşamlar burada gənclər toplaşır, musiqi ifa edir, şəhərə xüsusi ab-hava qatırlar.

Səfərimizin növbəti ünvanı Şuşa idi. Azərbaycanın mədəniyyət paytaxtı bizi özünəməxsus ruhu ilə qarşıladı. Burada güllə izləri daşıyan Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın və Bülbülün heykəllərini gördük. Hər biri Qarabağın ağrılı keçmişinin və yenidən dirçəlişinin canlı şahidi kimi görünürdü.

Natəvanın malikanəsinin ətrafında gəzdik, xatirə şəkilləri çəkdirdik. Bir qədər sonra saz sədaları eşidildi. Cıdır düzü seryangahına tamaşa etdim, yan hissədə saz ifa edən, oynayan insanlar qədim Azərbaycan musiqisinin gözəlliyini yaşadırdılar. Şuşanın ruhu məhz belə məqamlarda daha dərindən hiss olunurdu.

Dostlarımla birlikdə şəhəri gəzdik, şəkillər çəkdik, tarixi küçələri addım-addım dolaşdıq. Hətta bir sazı əlimə alıb simlərinə toxunmaq imkanı da əldə etdim. ”Baş sarıtel” ifasında Ustad şeir dedi. O an özümü bu şəhərin əsrlərdən gələn mədəni yaddaşının bir hissəsi kimi hiss etdim. Çiçək yığan, saçlarına dən düşsə də ruhu gənc qalan bir nənə gördüm. Ona yaxınlaşıb:

**- Nənə, olar çiçəklərinizi çəkim? - dedim.**

**Gülümsəyərək cavab verdi:**

**- Olar, nənəsinin çiçəyi.**

**Səmimiyyəti məni heyran etdi.**

**- Siz necə də gözəl, necə də şipşirin nənəsiniz, - dedim.**

**O isə üzümə baxıb:**

**- Sən də nənəsinin şəklini çəkən balaca şirinsən də, - söylədi.**

Nənədəki o sevinc, o doğmalıq hissi yazı ilə də ifadə edə bilmərəm o gözlərindəki hiss, balaca qız uşağı kimi ətarfı gəzərək əllərindəki yığdığı çiçəklər gülümsəyən üzü, ürəyindəkilər gözlərindən oxunurdu. Bəzən insanın yaşı artır, amma ruhu heç vaxt qocalmır. O nənə də məhz belə insanlardan idi. Səfərimizin növbəti dayanacağı İsa bulağı oldu. Ətraf yaşıllığa bürünmüşdü. İnsanlar ailələri ilə birlikdə istirahət edir, təbiətin gözəlliyindən zövq alırdılar. Burada Qarabağın təbiətinin necə zəngin və füsunkar olduğunu daha yaxından hiss etdik.

Daha sonra Turş su bulağına yollandıq. Bulaqdan axan mineral su ətrafdakı insanların böyük marağına səbəb olurdu. Su müəyyən vaxtlarla buraxıldığından bir müddət gözlədik. Bu vaxtı çəmənlikdə keçirib dincəldik, yemək yedik və təbiətin gözəlliyindən zövq aldıq.

Bulağın ətrafında gəzərkən maraqlı bir daş tapdım. Bu, xına daşıdır. Daşı su ilə isladıb sürtdükdə xına rəngi əmələ gəlirdi. Gülünün əllərinə bu xınadan çəkdik. Bu kiçik kəşf səfərin yaddaqalan məqamlarından birinə çevrildi.

Sonra yolumuz Laçına düşdü. Laçına daxil olan kimi tamam başqa bir mənzərə ilə qarşılaşdıq. Dağlar, yaşıl çəmənliklər, səliqəli evlər və təmiz küçələr insanda heyranlıq yaradırdı. Sanki təbiət burada bütün gözəlliyini səxavətlə sərgiləmişdi.

İlk olaraq şəhərin panoramik mənzərəsini izləmək üçün ayrılmış əraziyə getdik. Dağın zirvəsindən Laçını seyr etdik. Sonra şəhər mərkəzində bir az gəzib dolandıq. Laçın Seyrangahında müdhiş mənzərəni seyr etdikdən sonra Həkərinin sahilinə endik. Gəzə-gəzə Sus kəndinə getdik. Burada insanların üzündə fərəh və sevinc hissini görmək çox qürurverici idi. Sus kəndində Həkəri çayının sahilində yerləşən restoranlardan birində nahar edib, dincəldik. Onu da qeyd edim ki, qiymətlər çox münasibdir. Restoranın yaxınlığından axan Həkəri çayının səsi ətrafa xüsusi rahatlıq bəxş edirdi. Çayın sahilində dayanıb mənzərəni izləmək insana sözlə ifadə olunmayan bir rahatlıq verirdi.

Laçında yeni yaşayış məhəllələri, marketlər, parklar və uşaqlar üçün yaradılmış istirahət məkanları diqqətimizi çəkdi. Hiss olunurdu ki, burada insanların rahat və təhlükəsiz yaşaması üçün hər bir şərait yaradılıb.

Qayıdış yolunda bir neçə yerdə dayanaraq dağların bəxş etdiyi nemətləri topladıq. Kəklikotu, daş yarpızı və müxtəlif çöl bitkiləri yığdıq. Biz gənclər isə çəmənlikdə gəzişərək papatya güllərindən çələnglər hazırladıq. Təbiətin qoynunda keçən həmin anlar səfərin ən səmimi xatirələrindən biri oldu. Artıq səfərimizin sonuna yaxınlaşırdıq. Qayıdış yolunda yenidən təbiətin qoynunda qısa fasilələr verdik, dağ havasını ciyərlərimizə çəkdik. Yorğun olsaq da, hər birimizin üzündə məmnunluq vardı.

Gecə saat 12 - 1 radələrində Bakıya çatdıq. Arxada qalan bir gün ərzində təkcə Qarabağın şəhərlərini gəzməmişdik. Biz həm də tarixə toxunmuş, azadlığın dəyərini bir daha hiss etmiş, yenidən qurulan yurd yerlərimizin şahidi olmuşduq. Qarabağdan ayrılarkən yaddaşımızda yalnız gözəl mənzərələr deyil, həm də qürur, minnətdarlıq və ümid hissləri qalmışdı. Şuşada çəkdirdiyimiz bu fotonu təəssüratılarıma əlavə etməkdən qürur duyuram! Yaşasın Azərbaycan!

***✍ Südabə Məmmədova***
***AJB-nin üzvü, jurnalist***



■ **İyunun 30-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov məhkəmə sistemində aparılan islahatlar, ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.**

İclasda Məhkəmə-Hüquq Şurasının Aparatı və işçi qrupları tərəfindən məhkəmə fəaliyyətinə dair hazırlanmış layihələr ətrafında müzakirələr aparılıb, “Azərbaycan Respublikası məhkəmələrinin ədalət mühakiməsinin həyata keçirilməsi fəaliyyəti nəticəsində yaranan sənədlərin saxlanma müddətləri göstərilməklə sahə Siyahısı və onun tətbiq olunmasına dair Təlimat” və dövrün tələblərinə uyğun olaraq yenidən işlənilmiş “Hakimlərin Etik Davranış Kodeksi” layihələri təsdiq olunub.



■ **Azərbaycanda qadınların pensiya yaşı artırılıb. Qadınların pensiya yaşı 65 olaraq kişilərin pensiya yaşı ilə bərabərləşib.**

“Əmək pensiyaları haqqında” qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır. Qeyd edək ki, “Əmək pensiyaları haqqında” qanunun 7-ci maddəsinə əsasən, pensiya yaşına çatmış şəxsin fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ var.



■ **ABŞ-İran müharibəsinin təsiri azaldıqca və Hörmüz boğazından daşınmalar normal vəziyyətə qayıtdıqca qlobal neft bazarında yenidən təklif çoxluğunun yaranacağı gözlənilir. Bu barədə ABŞ-nin qabaqcıl investisiya banklarından olan “Goldman Sachs”ın məlumatında deyilir.**

Banka görə, strateji neft ehtiyatlarının yenidən artırılması tələbi artırsa da, bu, gözlənilən təklif çoxluğunu tamamilə aradan qaldırmaq üçün kifayət etməyəcək. Strateji neft ehtiyatlarını artırmaq üçün xam neft alışlarının qlobal bazarı bir qədər sıxlaşdıracağı, lakin bunun gözlənilən təklifi çoxluğunu qismən kompensasiya edəcəyi gözlənilir. Hörmüz boğazındakı axın tam normallaşdıqdan sonra bazarın təchizat profisitinə qayıtması gözlənilir.



■ **ABŞ, Kanada və Meksikanın birgə ev sahibliyi etdiyi futbol üzrə dünya çempionatının 1/16 final mərhələsinin son oyunlarından sonra bir sıra maraqlı statistik göstəricilər qeydə alınıb.**

Norveç millisinin hücumçusu Erlinq Holan yığmanın heyətində keçirdiyi 53-cü oyunda 60-cı qolunu vurub. O, həmçinin dünya çempionatındakı ilk üç görüşünün hər birində fərqlənməyi bacarıb. Fransa millisinin hücumçusu Kilian Mbappe isə mundialların pley-off mərhələsində vurduğu qolların sayını 10-a çatdıraraq yeni rekorda imza atıb. Meksika millisinin futbolçusu Hilberto Mora da tarixə düşüb. Yarımmüdafiəçi (17 yaş 259 günlük) dünya çempionatının pley-off mərhələsində start heyətində meydana çıxan ikinci 17 yaşlı və tarixdə ikinci ən gənc futbolçu olub.




■ **Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) çox ciddi yanaşılmayan, amma qlobal sağlamlıq təhdidlərindən biri olan, həmçinin milli səhiyyə planlarında hələ də tam diqqət yetirilməyən göbələk xəstəlikləri əleyhinə müqavimətin artan yükü ilə mübarizə aparmaqda ölkələrə kömək etmək üçün yeni təlimat dərc edib.**

Göbələk xəstəlikləri əleyhinə müqavimətə qarşı cavab tədbirlərinin gücləndirilməsi məqsədilə hazırlanan yeni plan profilaktikanın, diaqnozun, müalicənin və nəzarətin təkmilləşdirilməsi üçün praktik addımları müəyyən edir. ÜST bildirir ki, göbələk xəstəlikləri hər il 300 milyondan çox insana təsir göstərir, yüksək həddə ölüm, uzunmüddətli xəstəlik, dünyada sağlamlıq və məhsuldarlıqda böyük itkilərlə əlaqələndirilir.



■ **Orta Dəhliz Avropa üçün getdikcə daha mühüm əhəmiyyət kəsb edir və tədricən Avrasiya nəqliyyat sistemində əsas marşrutlardan birinə çevrilir.**

Bu barədə rumıniyalı politoloq Yulian Kifu “Azərbaycan və dünya” proqramının növbəti buraxılışında bildirib. Onun sözlərinə görə, söhbət Çindən Mərkəzi Asiya ölkələri, Xəzər regionu, Azərbaycan və Gürcüstan vasitəsilə Avropaya multimodal yük və konteyner daşınmasını nəzərdə tutan Qara dəniz-Xəzər dənizi strateji nəqliyyat dəhlizinin inkişafından gedir. Ekspert qeyd edib ki, perspektivdə marşrut Cənubi Qafqaz vasitəsilə potensial dəhlizlər də daxil olmaqla yeni nəqliyyat həlləri sayəsində genişləndirilə bilər. Bu kontekstdə Rumıniya Avropa İttifaqında marşrutun əsas son nöqtələrindən biri kimi nəzərdən keçirilir.

# Əmlak bazarında süni bahalaşma

***Azərbaycanda daşınmaz əmlak bazarında qiymətlərin süni şəkildə şişirdilməsi problemi hələ də aktuallığını qoruyur. Azərbaycan Qiymətləndiricilər Palatasının sədri Nüsrət İbrahimov bildirib ki, bu istiqamətdə illər əvvəl müəyyən addımlar atılsa da, gözlənilən nəticə əldə olunmayıb. Onun sözlərinə görə, hələ 2009-cu ildə daşınmaz əmlak vasitəçilərinin fəaliyyətinin tənzimlənməsi məqsədilə onların bir platformada birləşdirilməsi qərara alınıb.***



*"Hazırda mənzil bazarında müşahidə olunan əsas tendensiyalardan biri bəzi əmlakların real bazar dəyərindən xeyli yüksək qiymətlə satışa çıxarılmasıdır*

*Son illər Bakıda mənzil qiymətlərinin sürətlə bahalaşması bazarda ciddi disbalans yaradıb*

## Əmlak

Bu məqsədlə Realtorlar Assosiasiyası yaradılıb, vasitəçilər üçün mütəmadi təlimlər təşkil edilib, hətta xarici mütəxəssislər də prosesə cəlb olunublar. Lakin görülən işlər bazardakı problemləri tam aradan qaldırmağa kifayət etməyib.

N.İbrahimov vurğulayır ki, daşınmaz əmlak bazarında qiymətlərin formalaşmasına yalnız vasitəçilərin fəaliyyəti təsir göstərmir. Onun fikrincə, bu prosesdə dövlət qurumlarının, xüsusilə maliyyə və pul siyasətini həyata keçirən qurumların rolu mühüm əhəmiyyət daşıyır. AQP sədri qeyd edib ki, hazırda daşınmaz əmlak bazarında baş verən proseslər dövlət qurumları tərəfindən izlənilir, qiymət dinamikası təhlil olunur və bu istiqamətdə müvafiq işlər aparılır.

■ **Mövzu ilə bağlı daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə də bildirib ki, hazırda mənzil bazarında müşahidə olunan əsas tendensiyalardan biri bəzi əmlakların real bazar dəyərindən xeyli yüksək qiymətlə satışa çıxarılmasıdır.** Onun sözlərinə görə, bu, daha çox bazarda formalaşan psixoloji gözləntilərlə bağlıdır və qiymətlərin süni şəkildə şişirdilməsinə səbəb olur. Ekspert qeyd edir ki, bu prosesə həm bəzi rieltorlar, həm də mənzil sahibləri təsir göstərirlər. Belə ki, vətəndaşlar müəyyən dövrlərdə daşınmaz əmlakın daha da bahalaşacağını düşündükləri üçün mənzillərini bazar qiymətindən xeyli baha təklif edirlər. Xüsusilə ilin sonuna yaxın bu tendensiya daha qabarıq hiss olunur. Bir çox satıcı növbəti ildə qiymətlərdə ciddi artım olacağını ehtimal edərək satış qiymətini əvvəlcədən yüksəldir. R. Qasımzadənin sözlərinə görə, bazar dəyəri, təxminən, 200 min manat olan mənzillərin 240-250 min manata satışa çıxarıldığı hallara tez-tez rast gəlinir. Bu cür mənzillər uzun müddət alıcı tapa bilmir. Bazar süni şəkildə artırılmış qiymətləri qəbul etmir. Nəticədə satıcılar qiyməti real bazar səviyyəsinə endirdikdən sonra satış həyata keçirilir. Ekspert vurğulayır ki, hazırda Bakı şəhərində mənzillərin qiyməti yerləşdiyi əraziyə, tikilinin növünə, binanın keyfiyyətinə və infrastruktur imkanlarına görə dəyişir.

Hazırda paytaxtda bir kvadratmetrin qiyməti 1 400 manatdan başlayaraq 8 000 manata qədər yüksəlir. Ən yüksək qiymətlər şəhərin mərkəzində yerləşən premium və lüks yaşayış komplekslərinə aiddir. Orta seqmentdə isə bir kvadratmetrin qiyməti əsasən 2200-3500 manat arasında dəyişir və ümumi orta göstərici təxminən 2500 manat təşkil edir.

Onun fikrincə, bazarın əsas hissəsini 150 min manatdan 350 min manatadək olan orta qiymət seqmentinə aid mənzillər təşkil edir. Qiyməti 150 min manata qədər olan mənzillər isə əsasən köhnə tikililər və ya sahəsi kiçik yeni tikililərdir. Məhz bu kateqoriyaya aid əmlaklar daha likvid hesab olunur və bazarda daha tez satılır. R.Qasımzadə əlavə edib ki, real bazar qiymətinə uyğun satışa çıxarılan mənzillər, xüsusilə də qiyməti 150 min manata qədər olan əmlaklar əksər hallarda 10-15 gün ərzində alıcısını tapır. Bu kateqoriyada qiymət fərqi adətən 10 faizi keçmir və həmin mənzillər bazarda ən likvid əmlaklar hesab olunur.

■ **Mövzu ilə bağlı əmlak məsələləri üzrə ekspert Elnur Azadov bildirir ki, son illər Bakıda mənzil qiymətlərinin sürətlə bahalaşması bazarda ciddi disbalans yaradıb. Onun sözlərinə görə, hazırda paytaxtda mənzillərin qiyməti artıq bir sıra inkişaf etməkdə olan ölkələrin səviyyəsinə yaxınlaşıb.**

Ekspert qeyd edir ki, 2026-cı ilin birinci rübündə mənzil bazarında qiymət indeksi ötən ilin eyni dövrü ilə müqayisədə 8,1 faiz artıb. Bu isə bazarda bahalaşma tendensiyasının davam etdiyini göstərir.

E.Azadovun sözlərinə görə, qiymət artımının əsas səbəblərindən biri yeni tikililərin sayının azalmasıdır. O xatırladıb ki, 2016-cı ildə təsdiqlənən 86 saylı qərardan sonra pilot layihələrin icrasına başlanılıb. Həmin dövrlə müqayisədə hazırda tikinti şirkətlərinin bazardakı fəaliyyəti təxminən 8-10 dəfə zəifləyib. Bu vəziyyət, əsasən, tikinti və şəhərsalma sahəsinə cavabdeh dövlət qurumları tərəfindən yeni tikinti layihələrinə verilən icazələrin məhdudlaşdırılması ilə əlaqədardır.

Ekspert vurğulayıb ki, tikinti şirkətlərinin sayının azalması bazarda təklif həcmini xeyli aşağı salıb və rəqabəti zəiflədib. Eyni zamanda, paytaxtda aparılan söküntü işləri də mənzil fondunun azalmasına səbəb olaraq bazarda qıtlığı daha da dərinləşdirir. Onun fikrincə, bahalaşmaya təsir göstərən digər amillər yüksək inflyasiya və sürətli urbanizasiya prosesidir. Regionlardan Bakıya köçün davam etməsi mənzilə tələbatı artırır, təklifin məhdud qalması isə qiymətlərin daha da yüksəlməsinə şərait yaradır. "Bütün bu amillərin təsiri nəticəsində daşınmaz əmlak bazarında qiymətlər iqtisadi əsaslandırılmış səviyyəni üstələyib və bahalaşma prosesi hələ də davam edir. Son beş il yarım ərzində Bakı şəhərində daşınmaz əmlakın qiymətləri orta hesabla 75 faizə yaxın artıb", - deyə E.Azadov bildirir.

✍ *Sevinc*

***Azərbaycanda müxtəlif nəqliyyat növlərində sərnişinlərin biletsiz və ya ödəniş edilmədən daşınmasına görə tətbiq ediləcək cərimələrin məbləği müəyyənləşdirilib. Yeni tələblər avtobus, dəmir yolu, dəniz, çay və hava nəqliyyatı üzrə daşıyıcıların məsuliyyətini artırmağı, sərnişindaşıma sahəsində şəffaflığı təmin etməyi və qanunsuz halların qarşısını almağı hədəfləyir. Qaydalara əsasən, şəhərdaxili və rayondaxili avtobus marşrutlarında sərnişinin müəyyən olunmuş qaydada ödəniş edilmədən daşınmasına görə 20 manat məbləğində cərimə tətbiq olunacaq.***

# Biletsiz sərnişin daşınmasına son



## Nəqliyyat



**Adil Nəbiyev,**
nəqliyyat məsələləri üzrə ekspert

*"Problemin həlli yalnız cərimə məbləğinin artırılması ilə mümkün deyil*

Şəhərlərarası və rayonlararası avtobus marşrutlarında bu məbləğ 30 manat təşkil edəcək. Beynəlxalq sərnişindaşıma marşrutlarında isə biletsiz sərnişin daşınmasına görə daşıyıcı 40 manat məbləğində cərimələnəcək.

Qanunvericilikdə digər nəqliyyat növləri üzrə də məsuliyyət tədbirləri nəzərdə tutulub. Belə ki, dəmir yolu nəqliyyatında sərnişinin biletsiz və ya müvafiq qaydada ödəniş edilmədən aparılması 80 manat cərimə ilə nəticələnəcək. Dəniz və çay nəqliyyatında bu pozuntuya görə 50 manat, hava nəqliyyatında isə 60 manat məbləğində cərimə tətbiq ediləcək. Mütəxəssislərin fikrincə, bu dəyişikliklərin əsas məqsədi cərimə tətbiq etməklə gəlir əldə etmək deyil. Əsas hədəf sərnişindaşıma sahəsində intizamın gücləndirilməsi, bilet uçotunun tam təmin olunması, vergidən yayınma hallarının qarşısının alınması və sərnişin hüquqlarının daha etibarlı qorunmasıdır.

Biletsiz daşınan sərnişinlər hər hansı qəza və ya digər fövqəladə hadisə zamanı rəsmi uçotda görünmədikləri üçün onların sığorta təminatı, hüquqlarının müdafiəsi və hadisələrin araşdırılması da çətinləşir. Bu baxımdan bilet sistemi yalnız ödəniş vasitəsi deyil, həm də sərnişinin təhlükəsizliyini təmin edən mühüm hüquqi sənəd hesab olunur.

■ **Mövzu ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Adil Nəbiyev bildirib ki, beynəlxalq təcrübədə biletsiz sərnişin daşınmasına görə məsuliyyət kifayət qədər sərtdir və bunun əsas məqsədi yalnız daşıyıcını cərimələndirmək deyil, ümumilikdə nəqliyyat sistemində intizamı, təhlükəsizliyi və maliyyə şəffaflığını təmin etməkdir.**

Onun sözlərinə görə, inkişaf etmiş ölkələrin əksəriyyətində sərnişinin biletsiz daşınması vergi uçotunun pozulması, eyni zamanda sərnişinlərin qeydiyyatının düzgün aparılmaması kimi qiymətləndirilir. Xüsusilə Avropa İttifaqı ölkələrində belə hallara görə daşıyıcılara yüksək maliyyə sanksiyaları tətbiq olunur. Pozuntu təkrarlandıqda isə lisenziyanın müvəqqəti dayandırılması, marşrut icazələrinin ləğvi, fəaliyyətə nəzarətin gücləndirilməsi və əlavə audit yoxlamaları kimi tədbirlər görülür.

Ekspert qeyd edir ki, bir sıra ölkələrdə elektron bilet sistemləri, videomüşahidə kameraları və rəqəmsal nəzarət mexanizmləri hesabına bu cür pozuntular operativ şəkildə aşkarlanır, insan amilindən asılılıq isə minimuma endirilir. A.Nəbiyev vurğulayır ki, dəmir yolu və hava nəqliyyatında bu məsələ daha həssas xarakter daşıyır. Onun fikrincə, xüsusilə aviasiyada hər bir sərnişinin şəxsiyyətinin müəyyənləşdirilməsi, biletinin yoxlanılması və təhlükəsizlik prosedurlarından keçməsi beynəlxalq standartların əsas tələblərindəndir. Buna görə də biletsiz sərnişinin təyyarəyə buraxılması bəzi hallarda yalnız inzibati xəta deyil, təhlükəsizlik qaydalarının pozulması kimi də qiymətləndirilə bilər. Dəmir yolunda isə sərnişinlərin dəqiq uçotunun aparılması həm gəlirlərin şəffaflığı, həm də fövqəladə hallarda sərnişinlərin müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ekspert hesab edir ki, Azərbaycan qanunvericiliyində müxtəlif nəqliyyat növləri üzrə müəyyən edilən cərimələr bu sahədə intizamın gücləndirilməsi istiqamətində mühüm addımdır. Bununla belə, onun qənaətinə görə, bir çox inkişaf etmiş ölkələrlə müqayisədə bu sanksiyalar daha yumşaq xarakter daşıyır. A.Nəbiyev əlavə edir ki, problemin həlli yalnız cərimələrin məbləğinin artırılması ilə mümkün deyil. Onun sözlərinə görə, əsas diqqət nəzarət mexanizmlərinin səmərəli işləməsinə, elektron bilet və ödəniş sistemlərinin tam tətbiqinə, daşıyıcıların mütəmadi yoxlanılmasına, sürücülər və nəzarətçilər üzərində daxili nəzarətin gücləndirilməsinə yönəldilməlidir. "Beynəlxalq təcrübə göstərir ki, qanun pozuntularının azalmasına ən çox təsir edən amil cəzanın sərtliyi deyil, onun qaçılmazlığıdır.

Bu baxımdan rəqəmsal bilet sistemlərinin genişləndirilməsi, real vaxt rejimində sərnişin uçotunun aparılması və nəzarətin avtomatlaşdırılması həm şəffaflığın artırılmasına, həm də vergidən yayınma, qeyri-rəsmi sərnişin daşınması və təhlükəsizlik risklərinin minimuma endirilməsinə mühüm töhfə verəcək", - deyə ekspert fikrini tamamlayıb.

✍ *Sevinc*

# Yay mövsümü ilə qayıdan köhnə problem

***Yay mövsümünün gəlişi ilə şəhərdə açıq havada fəaliyyət göstərən restoran və kafelər yenidən müştərilərin üzünə qapılarını açıb. Axşam saatlarından etibarən canlı musiqi proqramları, müxtəlif şoular və sifariş əsasında ifa olunan mahnılar insanların istirahətinə rəng qatsa da, bu mənzərənin görünməyən digər tərəfi də var. Yaşayış binalarının yaxınlığında yerləşən bir çox açıq restoranlardan gecə saatlarınadək yayılan yüksək səs ətrafda yaşayan sakinlərin ciddi narazılığına səbəb olur.***



*"Problemin həlli üçün nə restoranların fəaliyyətini məhdudlaşdırmağa, nə də sakinlərin narazılığını görməzdən gəlməyə ehtiyac var*

## Cəmiyyət

Xüsusilə paytaxtın müxtəlif ərazilərində, o cümlədən restoranların sıx yerləşdiyi məhəllələrdə yaşayanlar bildirirlər ki, yay aylarında gecə saat 1-2-yə qədər davam edən musiqi səbəbindən nə pəncərə açmaq, nə də rahat istirahət etmək mümkün olur. Onların sözlərinə görə, təkcə canlı ifa deyil, sifariş verilən mahnılar, aparıcıların yüksək səslə müraciətləri və gücləndirici avadanlıqlardan istifadə gecə sakitliyini pozur. Sakinlər hesab edirlər ki, hər kəsin istirahət etmək hüququ olduğu kimi, gecə saatlarında rahat yatmaq və sağlam mühitdə yaşamaq hüququ da qorunmalıdır.

Vətəndaşlar onu da deyirlər ki, məsələ təkcə narahatlıq deyil. Gecə saatlarına qədər davam edən yüksək səs-küy yaşlı insanlar, körpə uşaqlar, xəstələr və səhər tezdən işə gedən şəxslər üçün ciddi problem yaradır. İsti havalarda pəncərələri bağlı saxlamaq isə əlavə narahatlıq yaradır. Mütəxəssislər də bildirirlər ki, uzun müddət yüksək səsə məruz qalmaq insan sağlamlığına mənfi təsir göstərir. Davamlı səs-küy yuxu pozğunluğu, əsəb gərginliyi, diqqət dağınıqlığı, stress, arterial təzyiqin yüksəlməsi və digər sağlamlıq problemlərinə səbəb ola bilər. Xüsusilə uşaqlar və yaşlı insanlar bu təsirlərə daha həssas qrup hesab olunur.

■ **Şəhərsalma və ətraf mühit məsələləri üzrə ekspert Cahid Həsənov hesab edir ki, yaşayış məntəqələrində fəaliyyət göstərən əyləncə obyektləri sakinlərin istirahət hüququnu nəzərə almalıdır:** "Yay mövsümündə açıq restoran və kafelərə marağın artması təbiidir. Bu, həm sahibkarlar, həm də xidmət sektorunun inkişafı baxımından müsbət haldır. Lakin yaşayış binalarının yaxınlığında gecə saatlarınadək yüksək səslə canlı musiqinin səsləndirilməsi artıq təkcə əyləncə məsələsi deyil, insanların rahat və sağlam mühitdə yaşamaq hüququ ilə bağlı məsələdir.

Şəhərsalma prinsiplərinə görə, yaşayış və kommersiya zonaları arasında balans qorunmalıdır. Əgər obyekt yaşayış massivinin daxilində və ya ona yaxın ərazidə fəaliyyət göstərirsə, səs-küy səviyyəsinin normativlərə uyğun tənzimlənməsi vacibdir. Əks halda, bu, sakinlərin həyat keyfiyyətinə mənfi təsir göstərir". Ekspertin sözlərinə görə, problemin həlli üçün nə restoranların fəaliyyətini məhdudlaşdırmağa, nə də sakinlərin narazılığını görməzdən gəlməyə ehtiyac var: "Bu məsələdə kompromis mümkündür. Məsələn, müəyyən saatdan sonra açıq havada canlı musiqinin dayandırılması, səs gücləndiricilərinin həcminin məhdudlaşdırılması, akustik izolyasiya tədbirlərinin görülməsi və nəzarət mexanizmlərinin gücləndirilməsi həm sahibkarların fəaliyyətini davam etdirməsinə, həm də sakinlərin rahatlığına xidmət edər. Əks halda, hər yay eyni problem təkrarlanacaq və sosial narazılıq daha da artacaq. Müasir şəhər idarəçiliyində əsas prinsip insanların yaşayış komfortunun qorunması ilə iqtisadi fəaliyyət arasında tarazlığın təmin edilməsidir". O əlavə edir ki, səs-küylə bağlı şikayətlərin operativ araşdırılması və obyektiv ölçmələrin aparılması bu sahədə daha səmərəli nəzarətin formalaşmasına kömək edə bilər. Bu, həm qanunvericiliyin tələblərinin icrasını təmin edər, həm də sahibkarlarla sakinlər arasında yaranan mübahisələrin azalmasına şərait yaradar.

✍ *Sevinc*

# Mağazalarda "alternativ ödəniş" praktikası

***Bir çox mağaza və xidmət obyektində kassada POS-terminal olsa da, müştəridən ödənişi terminal vasitəsilə deyil, kartdan-karta köçürmə və ya nağd şəkildə etməsi xahiş olunur. Bəzən, buna müxtəlif texniki və ya təşkilati səbəblər göstərilsə də, bu halın nə dərəcədə qanuni olduğu, iqtisadi motivləri və istehlakçı üçün yaratdığı risklər müzakirə mövzusudur. Bəs sahibkarlar niyə mövcud POS-terminallardan istifadə etmək istəmirlər? Bunun arxasında bank komissiyaları, vergi yükü, yoxsa qeyri-rəsmi dövriyyə ilə bağlı səbəblər dayanır? Bu praktika dövlətin nağdsız ödəniş siyasətinə necə təsir edir və istehlakçıların hüquqlarını hansı dərəcədə məhdudlaşdırır?***



## Cəmiyyət

**■ Vüqar Bayramov, deputat:**

- POS-terminallardan istifadə ilə bağlı vəziyyətə baxdıqda görürük ki, iri şəbəkə marketlərində bu sahədə demək olar, heç bir problem yoxdur. Vətəndaşlar həmin supermarketlərdə istər plastik kartla, istərsə də digər nağdsız ödəniş vasitələri ilə rahat şəkildə alış-veriş edə bilirlər. Bu obyektlərdə POS-terminallardan istifadəyə hər hansı məhdudiyyət qoyulmur və belə bir halın olmadığı bildirilir.

Müşahidələr göstərir ki, bəzi kiçik mağazalarda POS-terminallardan istifadə ilə bağlı müəyyən çətinliklər hələ də qalmaqdadır. Belə hallarda satıcılar POS-terminalın işləmədiyini və ya nasaz olduğunu bildirərək alıcılardan ödənişi kartdan-karta köçürmə yolu ilə həyata keçirmələrini xahiş edirlər.

Bununla belə, son aylarda, xüsusilə də son bir il ərzində bu istiqamətdə dövlət nəzarətinin əhəmiyyətli dərəcədə gücləndiyini müşahidə edirik. Nəticədə kartdan-karta köçürmələr vasitəsilə aparılan kommersiya əməliyyatlarının həm sayı, həm də həcmi azalmağa başlayıb. Kartdan-karta ödənişlər bəzi hallarda, xüsusilə xidmət sektorunda fəaliyyət göstərən sahibkarlar tərəfindən vergidən yayınmağa şərait yaradır.

Qeyd etmək lazımdır ki, qanunvericilikdə POS-terminallardan istifadə ilə bağlı hər hansı yeni dəyişiklik edilməyib. Mövcud qanunvericilik nağdsız ödənişlərin, o cümlədən POS-terminallardan istifadənin genişləndirilməsini təşviq edir və bu istiqamətdə dövlət siyasəti həyata keçirilir. Qanunvericiliyin icrasına nəzarət isə müvafiq dövlət qurumları tərəfindən təmin olunur.

Kartdan-karta köçürmələr heç bir halda alıcı üçün məcburi ödəniş üsulu ola bilməz. Əgər söhbət malın satışı və ya xidmətin göstərilməsi kimi kommersiya əməliyyatından gedirsə, ödəniş qanunvericiliyin tələblərinə uyğun şəkildə rəsmiləşdirilməlidir. Belə hallarda kartdan-karta ödənişlərin tələb olunması vergidən yayınma riskini yaradır və qanunvericiliyin tələblərinə uyğun hesab edilmir. Vətəndaşın şəxsi məqsədlərlə, məsələn, yaxın qohumuna və ya tanışına kart vasitəsilə pul köçürməsi tamamilə qanunidir və bunun kommersiya fəaliyyəti ilə əlaqəsi yoxdur. Yəni kartdan-karta köçürmələr şəxsi maliyyə münasibətlərində qanuni hesab olunsa da, mal satışı və ya xidmət göstərilməsi zamanı bu üsuldan istifadə edilməsinin tələb olunması qanunvericiliyin pozulması kimi qiymətləndirilə bilər.

**■ Vüqar Oruc, AQC sədri, iqtisadçı ekspert:**

- POS-terminal olduğu halda, müştərilərdən ödənişin birbaşa kartdan-karta köçürmə yolu ilə qəbul edilməsi əsasən sahibkarların real dövriyyəni vergidən gizlətmək məqsədi daşıyır. Xüsusilə əlavə dəyər vergisi (ƏDV) ödəyicisi kimi qeydiyyata düşməmək və gəlirlər üzrə vergi öhdəliklərindən yayınmaq üçün bu üsula üstünlük verirlər. Təəssüf ki, vətəndaşlarımız da çox zaman bu təşviqlərə loyal yanaşırlar. Halbuki qanunvericiliyə əsasən, bu cür hallara görə məsuliyyət nəzərdə tutulur. Vergidən yayınan sahibkarlar müvafiq cərimələrə məruz qalırlar və belə hallar təkrarlandıqda daha ciddi tədbirlər görülür.

Bu, məsələnin subyektiv tərəfidir. Obyektiv tərəfi isə ondan ibarətdir ki, ƏDV üzrə dövriyyə həddi hazırda çox aşağıdır. ƏDV həddinin dəyişdirilməməsi sahibkarlığın inkişafı baxımından ciddi problemlər yaradır. Xüsusilə pərakəndə ticarət və xidmət sahəsində çalışan kiçik sahibkarlar məhz ƏDV ödəyicisinə çevrilməmək üçün dövriyyələrini gizlətməyə çalışırlar. ƏDV ödəyicisi olmaq sahibkar üçün vergi yükünü əhəmiyyətli dərəcədə artırır. Nəticədə xərclər çıxdıqdan sonra əldə olunan mənfəətin böyük hissəsi müxtəlif vergi öhdəliklərinin yerinə yetirilməsinə yönəlir. Böyük müəssisələr üçün ƏDV ödəyicisi olmaq müəyyən üstünlüklər yarada bilər. Kiçik və orta biznes üçün bu, fəaliyyətə əlavə maliyyə yükü və ciddi inzibati nəzarət deməkdir. POS-terminal vasitəsilə edilən ödənişlər bank sistemində görünür və avtomatik olaraq vergi uçotuna düşür. Kartdan-karta köçürmə isə bank sistemində sadəcə fiziki şəxslər arasında pul köçürməsi kimi görünür və bir çox hallarda sahibkarın vergi öhdəliyini formalaşdırmır. Nəticədə real dövriyyə gizlədilir, kölgə iqtisadiyyatının genişlənməsi üçün zəmin yaranır və sahibkarlar vergidən yayınmaq yolu ilə daha çox gəlir əldə etməyə çalışırlar.

Bu istiqamətdə, artıq müəyyən nəzarət tədbirləri həyata keçirilir. Kart əməliyyatlarının monitorinqi aparılır, vətəndaş müraciətləri araşdırılır və gələcəkdə bu sahədə nəzarətin daha da güclənəcəyi gözlənilir.

Kartdan-karta köçürmənin ödəniş vasitəsi kimi istifadə olunmasının istehlakçılar üçün də ciddi riskləri var. Əgər vətəndaş aldığı məhsulla bağlı sonradan problem yaşayarsa, rəsmi qəbz olmadığından həmin məhsulun məhz həmin obyektdən alındığını sübut etmək çətinləşir. Bu isə istehlakçının hüquqlarının müdafiəsini zəiflədir. Bundan əlavə, bəzi hallarda kartdan-karta köçürmələr zamanı komissiya tutulmaları da baş verir ki, bu da vətəndaş üçün əlavə xərc yaradır.

Bu səbəbdən vətəndaşlara tövsiyə olunur ki, mağazalarda kartdan-karta ödənişlərdən mümkün qədər imtina etsinlər. Əgər sahibkar onları buna məcbur edirsə, qanunvericiliyin verdiyi hüquqlardan istifadə edərək etirazlarını bildirsinlər.

Əgər vətəndaşlar bu məsələdə prinsipial mövqe nümayiş etdirsələr, sahibkarlar da məcburən POS-terminal vasitəsilə ödəniş qəbul edəcəklər. Bu isə iqtisadi dövriyyənin şəffaflığının təmin olunmasına, pul axınlarının nəzarətdə saxlanılmasına, dövlət büdcəsinə vergi daxilolmalarının artmasına və nəticə etibarilə ölkənin iqtisadi gücünün möhkəmlənməsinə xidmət edəcək.

> *Kartdan-karta ödənişlərin tələb olunması vergidən yayınma riskini yaradır*

> *Bu, vergidən yayınmaq və ödənişləri rəsmi uçota salmamaq məqsədi daşıyan bəhanədir*

Digər mühüm məsələ nağdsız ödənişlərin təşviqidir. Dövlət və banklar elə təşviq proqramları həyata keçirməlidirlər ki, həm sahibkar, həm də vətəndaş POS-terminal vasitəsilə ödəniş etməkdə maraqlı olsun. Məsələn, kartla ödəniş edən sahibkarlar və istehlakçılar üçün müəyyən güzəştlər, əlavə üstünlüklər və ya stimullaşdırıcı mexanizmlər tətbiq oluna bilər.

Vacib məsələlərdən biri də bank komissiyalarının azaldılmasıdır. Çünki bəzi hallarda POS-terminal vasitəsilə həyata keçirilən əməliyyatlara görə bank komissiyaları sahibkarlar üçün əlavə xərc yaradır. Bu xərclərin azaldılması da nağdsız ödənişlərin genişlənməsinə müsbət təsir göstərə bilər. Eyni zamanda dövlət tərəfindən monitorinqlər gücləndirilməli, nəzarət tədbirləri davam etdirilməlidir. Vətəndaşlara izah olunmalıdır ki, söhbət yalnız onların şəxsi maraqlarından getmir. Kartdan-karta qeyri-rəsmi ödənişlərin geniş yayılması dövlət büdcəsinə daxilolmaları azaldır, kölgə iqtisadiyyatını genişləndirir və nəticə etibarilə ölkənin iqtisadi inkişafına mənfi təsir göstərir.



✍ *Arzu Zeynallı*

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏRHUMU



Tanınmış aktyor, "Yeşilçam"ın əfsanəvi sənətçisi Kadir İnanır 77 yaşında vəfat edib. Bu barədə "Anadolu Ajansı" məlumat yayıb. Bildirilib ki, o, müalicə aldığı xəstəxanada dünyasını dəyişib. Türkiyədə "Yeşilçam"ın ulduzu Kadir İnanırın vəfatı sənət camiəsini yasa boğub. Bir çox filmlərdə partnyoru olan Türkan Şoray Kadir İnanırla bağlı duyğusal paylaşım edib.

### Həftənin ÜZRÜ



Yaponiya millisinin baş məşqçisi Hajime Moriyasu dünya çempionatının 1/16 final mərhələsində Braziliyaya məğlub olduqdan sonra azarkeşlər qarşısında baş əyib. Göz yaşlarını gizlədə bilməyən Moriyasu onların qarşısında baş əyib. Futbolçular da baş məşqçinin ardınca eyni hərəkəti edib, turnir boyunca onlara dəstək olan azarkeşlərə təşəkkürlərini bildiriblər.

### Həftənin SENSASİYASI



Dünya çempionatında 1/16 final mərhələsinin oyunları davam edir. Almaniya yığması Paraqvay kollektivi ilə qarşılaşıb. 42-ci dəqiqədə Xulian Ensiso hesabı açıb. Kai Havertz 54-cü dəqiqədə hesabı bərabərləşdirib. Matçda penaltilər seriyası oynanılıb. Paraqvay penaltilər seriyasında Almaniyaya 4:3 qalib gələrək 1/8 finala çıxıb.

### Həftənin VİCDANLISI



"Ermənistanın addımları Avrasiya İqtisadi İttifaqı (AİI) çərçivəsində vicdanlı tərəfdaşlıq prinsiplərinə uyğun gəlmir". Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. M. Zaxarova diqqəti Ermənistanın 2025-ci ildə Avropa İttifaqına (Aİ) qoşulma prosesinin başlanmasını qanunvericilik səviyyəsində rəsmiləşdirməsi faktına yönəldib.

### Həftənin EYNƏKLİSİ



Fransa Prezidenti Emmanuel Makron gözündə yaranan problem səbəbindən Oman sultanı ilə görüşə tünd eynəkdə qatılmaq məcburiyyətində qalıb. Bu barədə "Agence France-Presse" (AFP) məlumat yayıb. Dövlət başçısı Oman sultanı Heysəm bin Tariqi qarşılamaq üçün Yelisey sarayının pilləkənlərinə eynəklə çıxıb. Makron rəsmi görüş zamanı qapalı məkanda belə eynəyini çıxarmayıb.

### Həftənin HƏDƏSİ



"Rusiya ilə əlaqələrin zədələnməsi Ermənistanın sıravi vətəndaşları üçün qaçılmaz ağır bədəllərə səbəb ola bilər". Bu fikirləri Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedev bildirib. Onun sözlərinə görə, Ermənistan bu gedişlə Rusiya bazarını, Avrasiya İqtisadi İttifaqındakı üstünlüklərini və uzun illər ərzində formalaşmış iqtisadi əlaqələrini itirə bilər.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



Didye Deşampin qələbə sevinci

## Azərbaycan mədəniyyətinin vizit kartı

**Aydın Xan Əbilov,**
kulturoloq

Qonaqpərvərlik Azərbaycan xalqının milli kimliyini və dünyagörüşünü ifadə edən əsas xüsusiyyətlərdən biridir.

⏩ Səh. 4

## STATİSTİKA



**■ Cari ilin yanvar-may aylarında Azərbaycan 100 milyon 5,17 min dollar dəyərində şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları idxal edib. Bu göstərici 2025-ci ilin eyni ayları ilə müqayisədə 10,6 faiz çoxdur.**

Həmçinin ölkədən 56 milyon 62,02 min dollar dəyərində şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları ixrac edilib. Bu isə illik müqayisədə 4,1 dəfə artım deməkdir.



⏩ Səh. 7

## Əmlak bazarında süni bahalaşma